www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 avqust 2025-ci il Cümə № 153 (8763) Qiyməti 60 qəpik

**Xəbər**

## Məktəblərdə sıxlıq olacaq - bir sinifdə 40-45 nəfər

yazısı səh.10-da

**Gündəm**

### Bakıda Türkiyə ilə İsrail danışıqları



Yeni səfirin açıqlamaları; tərəflər arasında barışıq olacaqmı?

yazısı səh.5-də

### İlham Əliyevin mühüm Çin səfəri

yazısı səh.6-da

### Rus əsgərinin ayağını Gümrüdən kim kəsəcək?

yazısı səh.9-da

### Avtobuslarda gedişhaqqı bir manat olacaq?

yazısı səh.3-də

### Rusiya "Xəzərin xilası üçün pulum yoxdur" deyir

yazısı səh.13-də

### "Ayravani, ayravani, Avropa..."

yazısı səh.6-da

### Azərbaycanın Strasburqa qayıtmaq şərtləri

yazısı səh.4-də

### Ölkədə kürü istehsalı 13 dəfə artıb

yazısı səh.13-də

### Kreditlə alınan əşyalar problemə çevrilir

yazısı səh.14-də

### "Qarabağ" 11 klubumuza sərvət qazandırdı

yazısı səh.2-də

### Paşinyan 10 noyabr sənədini qüvvədən düşmüş elan etdi

yazısı səh.11-də

### 500 Mbit/s internet sürəti vədi

yazısı səh.12-də

### Payız gəlməmiş ət bahalaşdı

yazısı səh.15-də

# TÜRK DÜŞMƏNLƏRİNİ NARAHAT EDƏN ANONS

"Türk Dövlətləri Təşkilatı beynəlxalq arenada qlobal oyunçuya çevrilməkdən ibarətdir" deyən İlham Əliyevin mesajları hansı paytaxtlaradır?



yazısı səh.7-də

# Qaz və işığa limitin ləğvi müzakirələri

Ekspert deyir ki, limit ləğv olunarsa, varlılar borcunu kasıba ödətdirəcək, çünki...

yazısı səh.3-də




### Seysmoloq Bakıda binaların neçə bal zəlzələyə davamlı olduğunu açıqladı

yazısı səh.12-də




*Politoloq:*

### "Ararat Mirzoyan nəyisə qarışdırır"

yazısı səh.8-də



### Ərdoğanın təqdim etdiyi "Polad Günbəz"in sirləri

yazısı səh.7-də

# “Qarabağ” 11 klubumuza sərvət qazandırdı



**“Qarabağ”ın UEFA Çempionlar Liqasının Liqa mərhələsinə vəsiqə qazanmasından fayda götürən təkcə Ağdam klubu özü olmayacaq.**

QOL.az xəbər verir ki, qitənin ali futbol qurumu ÇL-in əsas mərhələsinə düşən klubların təmsil etdiyi ölkələrin yarışda iştirak edə bilməyən digər komandalarına həmrəylik məqsədilə maddi yardım ayıracaq.

Konkret Azərbaycana gəlincə, Premyer Liqasında yarışan 12 klubdan 11-nin (“Qarabağ” istisna olmaqla) hər birinə ümumən 800 min avronun ödəniləcəyi gözlənilir. Yardım iki mərhələdə klublara hesabına köçürüləcək: əvvəlcə 550 min, daha sonra 250 min avro (bugünkü məzənnə ilə 1 milyon 579 min manat). Lakin bu məbləğ son olmaya da bilər. Məsələ burasındadır ki, “Qarabağ” ÇL-in əsas mərhələsində uğurlu çıxış edərsə, həmin klublar üçün mükafat bir qədər də arta bilər.

Ağdam klubunun özünə gəlincə, “Qarabağ” təkcə ÇL-in Liqa mərhələsinə düşdüyünə görə, 18 milyon 620 min avronu artıq təmin edib.

UEFA tərəfindən təsnifat mərhələsində iştiraka görə əlavə bonusların ödəniləcəyi də gözlənilir. Liqa mərhələsində isə bir qələbəyə görə 2 milyon 100 min, heç-heçə üçün isə 700 min avro mükafat nəzərdə tutulub.



## Üç şəhidimiz bu gün dəfn olunacaq

**Bu gün Birinci Qarabağ müharibəsinin daha üç itkin şəhidi dəfn olunacaq.**

Bu barədə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası məlumat yayıb.

Məlumata görə, hər üç şəhid hərbi qulluqçu olub.

Hacıyev Rizvan Qara oğlu Kürdəmir rayonu, Qocalı kənd qəbiristanlığında saat 13.00-da, Əliyev Sumbat Nüdrət oğlu Füzuli rayonu, Aşağı Kürdmahmudlu qəbiristanlığında saat 14.00-da, Kərimov Natiq Zeynal oğlu Qax rayonu, Oncallı kənd qəbiristanlığında saat 16.00-da dəfn olunacaqlar.

Qeyd edək ki, Rizvan Hacıyev 1993-cü ilin aprel ayında Füzuli istiqamətində gedən döyüşlər zamanı şəhid olub.

Füzuli rayonunun Qacar kəndi işğal olunan zaman itkin düşmüş topçu Sumbat Əliyevin nəşinin qalıqları 32 ildən sonra Xocavənd rayonu ərazisində tapılıb.

## Muğam qalmaqalına Xalq artisti də qoşuldu



**“Mən IX "Muğam" Televiziya Müsabiqəsində münsiflərin qərarları ilə razılaşmıram, heç vaxt da razılaşmayacağam".**

Bunu müsabiqənin münsiflərindən biri olan Xalq artisti Səkinə İsmayılova Bakupost.az-a açıqlamasında iştirakçıların etirazlarına münasibət bildirərkən deyib.

“Bildiyiniz kimi, mən finalda iştirak etmədim. Qərarı oradakı münsiflər veriblər. Hər halda, mən finalda münsif olsaydım, nəticə başqa cür olardı. Mən olsaydım, var gücümlə çalışıb haqq-ədaləti bərpa edərdim”, - deyə Xalq artisti bildirib.

Qeyd edək ki, IX “Muğam” Televiziya Müsabiqəsinin nəticələri bəzi iştirakçılar tərəfindən narazılıqla qarşılanıb. Belə ki, Kənan Novruzov mükafatlandırılma mərasimində ona təqdim olunan diplomu qəbul etməyib. Daha sonra isə ona qarşı haqsızlıq olunduğu ilə bağlı açıqlama verib. Digər narazı iştirakçı Aycan Şükürlü isə etirazını videomüraciətlə bildirib və nəticələrə yenidən baxılmasını istəyib.

## “Zapravka” partlayışından xəsarət alan öldü

**Ağcabədi rayonunda maye qazdoldurma məntəqəsində partlayışda ağır xəsarətlər alan şəxs həyatını itirib.**

TƏBİB-dən verilən məlumata görə, 1979-cu il təvəllüdlü kişi müxtəlif dərəcəli yanıq xəsarətləri ilə Ağcabədi Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb.

İlkin tibbi yardımdan sonra o, vəziyyətinin ağırlığı nəzərə alınaraq Nərimanov Tibb Mərkəzinin Yanıq Mərkəzinə təxliyə edilib.

Həkimlərin səylərinə baxmayaraq, bədənin 85%-ni əhatə edən II-III dərəcəli termiki yanıq diaqnozu qoyulan xəstə vəfat edib.

## Tanınmış alimi öldürən həkim barışıq təklif etdi



**Alim Arif Acaloğlunu avtomobillə vurub öldürməkdə təqsirləndirilən tanınmış həkim Azər Maqsudovun məhkəmə prosesi keçirilib.**

Azər Maqsudovun vəkili Musa Abdinov deyib ki, qarşı tərəfə barışıq təklif olunub: “Biz barışıq üçün pul təklif etmişik. Müəyyən müddətə aylıq ödəniş ediləcəyini də bildirmişik. Hazırda onlardan cavab gözləyirik. Zərərçəkənlərlə barışmaq üçün cəhdləri davam etdiririk”.

Azər Maqsudov deyib ki, qarşı tərəflə barışığa hazırdır. O da zərərçəkən tərəfdən bununla bağlı cavab gözlədiyini deyib.

Növbəti iclas sentyabrın 8-nə kimi təxirə salınıb.

Xatırladaq ki, qəza 2023-cü ilin noyabrında Sabunçu rayonu ərazisində baş verib. Qeyd edək ki, Azər Maqsudov Kliniki Tibbi Mərkəzin (KTM) Toksikologiya şöbəsinin müdiridir.

A.Maqsudova Cinayət Məcəlləsinin 263.2-ci (yol hərəkəti və ya nəqliyyat vasitəsinin istismarı qaydalarının pozulması - ölümlə nəticələndikdə) maddəsi ilə ittiham irəli sürülüb.

Onun barəsində istintaq dövrü müddətində həbslə bağlı olmayan qətimkan tədbiri seçilib.



## Bu gün 39 dərəcə isti olacaq

**Avqustun 29-da gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir.

Arabir güclənən şimal-qərb küləyi gündüz mülayimləşəcək. Havanın temperaturu gecə 20-24, gündüz 29-33 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunu, nisbi rütubət isə gecə 60-70 %, gündüz 35-40 % təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25, gündüz 34-39, dağlarda gecə 10-15, gündüz 20-25 dərəcə isti olacaq.

## Valideynləri tərəfindən döyülən körpə Bakıya gətirildi



**Ağdamda valideynləri tərəfindən şiddətə məruz qalan körpənin vəziyyəti açıqlanıb.**

Bildirilib ki, avqustun 27-də saat 16:20 radələrində 2023-cü il təvəllüdlü azyaşlı (kişi cinsli) komatoz vəziyyətdə Ağdam Rayon Mərkəzi Xəstəxanasının Təcili tibbi yardım şöbəsinə hospitalizasiya olunub.

“Bədənin müxtəlif nahiyələrinin küt travması diaqnozu təyin edilən və zəruri tibbi xidmət göstərilən azyaşlı daha ixtisaslı tibbi xidmət almaq üçün Respublika Neyrocərrahiyyə Xəstəxanasına təxliyə edilib.

Tibb müəssisəsinin Anesteziologiya, reanimasiya və intensiv terapiya şöbəsinə yerləşdirilən pasiyentə müştərək travma, qapalı kəllə-beyin travması, sol beyin yarımkürəsinin üzərində kəskin subdural hematoma, bədənin çoxsaylı əzilmiş yaraları diaqnozları təyin edilib.

Pasiyent üzərində subdural hematomanın boşaldılması, dekompressiv kraniotomiya əməliyyatı icra olunub. Hazırda müvafiq şöbədə müalicəsi davam etdirilir, vəziyyəti ağırdır.

Məlumat üçün qeyd edək ki, 2024-cü il təvəllüdlü azyaşlı (kişi cinsli) isə hazırda profilaktik olaraq həkimlərin müşahidəsi altında saxlanılır, aidiyyəti üzrə təhvil veriləcək", - məlumatda qeyd olunub.



## Bu idarə Xankəndinə köçürülür

**Prezident İlham Əliyev “İşğaldan azad olunmuş ərazilərdə şəhərsalma məsələləri haqqında” 12 avqust 2021-ci il tarixli fərmanında dəyişiklik edib.**

Modern.az xəbər verir ki, dəyişikliyə əsasən, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi Bərdədən Xankəndinə köçürülür.

Onun fəaliyyəti Xankəndi şəhərini və Ağdərə rayonunu da əhatə edəcək.

Nazirlər Kabineti və Dövlət Komitəsi fərmandan irəli gələn məsələləri həll etməlidir.



## Səfir etimadnaməsini Maduroya təqdim edib

**Azərbaycanın Venesuela Bolivar Respublikasındakı səfiri Ruslan Rzayev etimadnaməsini bu ölkənin prezidenti Nikolas Maduroya təqdim edib.**

Səfirlikdən bildirilib ki, N.Maduro Azərbaycana səfərlərini məmnunluqla xatırlayaraq, səmimi qonaqpərvərliyə görə dövlətimizin başçısına bir daha təşəkkürünü bildirib.

Görüşdə həmçinin ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafı, beynəlxalq təşkilatlar çərçivəsində, xüsusilə hər iki ölkənin Qoşulmama Hərakatına sədrliyi dövründəki uğurlu əməkdaşlığın davam etdirilməsi, eyni zamanda iqtisadi, ticari, enerji, turizm və digər sahələrdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

## Yanan DOST Mərkəzi bağlandı

**Abşeron rayonu, Xırdalan şəhərində yerləşən Abşeron DOST Mərkəzinin inzibati binasında baş verən yanğınla əlaqədar mərkəz müvəqqəti olaraq fəaliyyət göstərməyəcək. Bu barədə DOST Agentliyindən bildirilib. Bildirilib ki, fəaliyyətin dayandırılması mərkəzdə kiçik təmir işlərinin aparılması ilə bağlıdır.**

Qeyd edək ki, ötən günkü hadisə mərkəzin yalnız bir otağında baş verib. Vətəndaşlar Bakı şəhərində yerləşən digər DOST mərkəzlərinə müraciət edə bilərlər.

YENİ MÜSAVAT
N 153 (8763) 29 avqust 2025

# Qaz və işığa limitin ləğvi müzakirələri

## Ekspert deyir ki, limit ləğv olunarsa, varlılar borcunu kasıba ödətdirəcək, çünki...



**“Qaz təchizatı haqqında” və “Elektroenergetika haqqında” qanunların tətbiqindən sonra Azərbaycanda qaz və işığa görə sabit tarif tətbiq olunacaq.**

Növbəti mərhələdə Tarif Şurası tərəfindən sabit tarifin məbləği müəyyənləşdiriləcək və bunun ardınca sabit tarifin tətbiqinə başlanılacaq. Yeni abonentlərin ödəyəcəyi məbləğin üzərinə onun enerjidən istifadə edib-etməməyindən asılı olmayaraq hər ay sabit tarif məbləği də əlavə olunacaq

Bu qaydanın 2026-cı il yanvarın 1-dən qüvvəyə minəcəyi gözlənilir.

Qaz və işığa görə sabit tarif tətbiq olunması fonunda qaz və işıq limitlərinin ləğvi müzakirələri yenidən gündəmə gəlib. Qeyd edək ki, qaz və işıqla bağlı limit 2016-cı ildən tətbiq edilib. Hazırda aylıq elektrik enerjisi istehlakı 200 kilovat-saatadək olan istehlakçılar üçün ödəniş 8,4 qəpik, aylıq istehlak həcminin 200 kVts-dan 300 kVts-a qədər (300 kVts daxil) olan hissəsi üçün 10 qəpik, aylıq istehlak həcminin 300 kVts-dan çox olan hissəsi üçün 15 qəpik müəyyənləşdirilib.

Təbii qazın pərakəndə satış tarifi əhali üzrə illik istehlak həcminin 1200 m3-dək (1200 m3 daxil) olan hissəsi üçün 12,5 qəpik, illik istehlak həcminin 1200-2500 m3 olan hissəsi üçün 22 qəpik, illik istehlak həcminin 2500 m3-dən çox olan hissəsi üçün 30 qəpik müəyyən olunub.

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Azər Badamov** Modern.az-a açıqlamasında limitlərin ləğv olunmasını və bütün vətəndaşlar üçün məqbul orta tarif müəyyənləşməsini təklif edib. Deputata görə, bu, limitlərin tətbiqi ilə bağlı cəmiyyətdə artıq müzakirələrə son qoyar.

Ötən ay energetika nazirinin müavini Orxan Zeynalov parlamentin növbədənkənar sessiyasının plenar iclasında bildirib ki, sabit tarif səviyyəsi hər bir abonent üzrə aylıq 1 manatı aşmayacaq. Onun sözlərinə görə, sabit tarifinin tətbiqində əsas məqsəd xidmətin keyfiyyətinin artırılması, xərclərin istehlakçılar arasında daha ədalətli bölünməsidir: “Bu, tariflərin artırılması hesabına deyil, mövcud istehlak tarifinə çəkilən xərclərin xarakterinə uyğun olaraq strukturlaşdırılması hesabına əldə edilməsidir”.

Eyni zamanda nazir müavini qeyd edib ki, bu yenilik “Elektroenergetika haqqında” qanun layihəsində təsbit olunub: “Hər ay elektrik enerjisi haqqını ödəyən istehlakçılar üçün tarif yükünün cüzi də olsa azaldılması üçün müəyyən iqtisadi zəmin yaradacaq. Sabit tarifinin maliyyə tutumu məsələsinə gəlincə, hesablamalarımıza görə, bu məqsəd üçün nəzərə alınan faktiki xərclərin həcmi ümumi xərclərin həcminin 2%-dən aşağı hesablanıb. Sabit tarif səviyyəsi hər bir abonent üzrə aylıq 1 manatı aşmayacaq”.

**İqtisadçı Xalid Kərimli** mövzu ilə bağlı “Yeni Müsavat”a fikrini bildirib. Onun sözlərinə görə, əgər mövcud tariflər vətəndaşların ödəmə imkanlarına uyğun gəlmirsə, daha məntiqli addım həmin tariflərin endirilməsi olardı: “Limitlərin tamamilə aradan qaldırılması isə kasıb və qənaətcil təbəqənin maraqlarına ziddir. Çünki limit tətbiqinin əsas məqsədi az enerji sərf edən insanların daha ucuz qiymətlərlə xidmət almasına şərait yaratmaqdır. Bu, həm də istehlakçıları daha rasional davranmağa təşviq edir.

Limitin mövcudluğu sosial baxımdan ədalətli mexanizmdir. Tariflərin yüksək olduğu qənaətindəyiksə, bu zaman çıxış yolu limitləri ləğv etmək deyil, məhz onların həcmini artırmaqdır. Belə olanda həm kasıb təbəqə qorunur, həm də insanlar qənaət mədəniyyətinə alışır. Limitin götürülməsi isə əslində imkanlıların sərf etdiyi enerjinin bir hissəsini az istifadə edənlərin üzərinə yükləmək deməkdir. Yəni daha çox enerji sərf edənlər əlavə xərclərinin müəyyən qədərini az istifadə edənlərin cibindən çıxarmış olacaqlar.

Təəssüf ki, bəzi çevrələrdə “limit zərərlidir” kimi sadə yanaşmalar eşidirik. Halbuki limit sistemi az enerji sərf edən vətəndaşlar üçün daha münasib tarif formalaşdırır və onların maraqlarını balanslaşdırır. Maddi imkanı məhdud olan, kiçik evdə yaşayan, qışda evini güclə qızdıran və hər detalda qənaət etməyə çalışan insanlar bu sistemdən faydalanır. Əgər limit ləğv edilərsə, bu təbəqənin yükü avtomatik olaraq artacaq, onlar daha yüksək vahid tarif ödəmək məcburiyyətində qalacaqlar.

Əgər həqiqətən sosial ədaləti əsas götürürüksə, doğru addım limitlərin ləğvi deyil, onların artırılmasıdır. Məsələn, hazırkı 1200 kVt-saatlıq limit 1500 və ya 1800-ə yüksəldilə bilər".

Qeyd edək ki, bu il yanvarın 2-dən Azərbaycanda əhali istehlakçı qrupu üzrə təbii qazın qiyməti limitlərə müvafiq olaraq, artırılıb. Əhaliyə pərakəndə qaz satışı üçpilləli tarif sistemi ilə həyata keçirilir. Əvvəl əhali bir kub metr qaz üçün azı 12 qəpik ödəyirdisə, indi bu, yarım qəpik daha çox olacaq. Əhali üzrə illik istehlak həcmi 1200 kub metrdən 2500 kub metrədək olan hissə üçün 2 qəpik (10%) artırılaraq 20 qəpikdən 22 qəpiyə qaldırılıb. İldə 2500 kub metrdən çox qaz işlədənlər üçün isə qiymət 5 qəpik bahalaşıb. İndi onlar bir kub metr üçün 25 qəpik yox, 30 qəpik ödəməli olacaqlar. Qiymət artımı ilə bağlı bu qərar 2 yanvar tarixindən qüvvəyə minib. Qiymət artımından sonra hazırda üçpilləli limitə müvafiq olaraq, mövcud qiymətlər belədir: 1200 m3-dək (1200 m3 daxil) olan hissəsi üçün bir kubmetrə görə 12,5 qəpik, 1200-2500 m3 olan hissəsi üçün bir kubmetrə görə 22 qəpik, 2500 m3-dən çox olan hissəsi üçün isə bir kubmetrə görə 30 qəpik ödəyir. Ölkədə təbii qazın qiymətini Tarif Şurası tənzimləyir. Sonuncu qiymət artımı 2021-ci ildə olmuşdu. Azərbaycanda təbii qaza diferensial tariflərin tətbiqi ilə bağlı qərar təxminən 8 il əvvəl verilib. O vaxt ikipilləli tarif sistemində təbii qazın ilkin limitinin bir m3 üçün qiyməti 10 qəpik olub. Sonradan təbii qazın pərakəndə satışına hazırda işlək olan üçpilləli tarif sistemi tətbiq olunmağa başlayıb. Hazırda üçpilləli limitin ilkin pilləsi 1200 kubmetr təyin olunub.

Bu illər ərzində limitin ilkin pilləsi gah artırılıb, gah da azaldılıb. Bir müddət bu limit 1700 kubmetrdən 2200 kubmetrə də çatdırılmışdı. Sonradan isə limit 1200-ə endirildi. Azərbaycanda təbii qazın satışı üzrə tariflər əhali və qeyri-əhali qrupu üzrə fərqli hesablanır.

Ölkədə məişət qazı əhali istehlakçı qrupuna iki cür satılır: öncədən pulu ödənməklə - smart tipli sayğaclar vasitəsilə və sonradan ödənməklə - mexaniki sayğaclar vasitəsilə.

Əhali kateqoriyasına aid abonentlər üçün tətbiq edilən limit istifadə olunub-olunmamasından asılı olmayaraq, hər il yenilənir, yəni sıfırlanır. Yəni bir abonent il ərzində 1200 kub metr və ya 2500 kub metrdən artıq işlətsə də, işlətməsə də ilin əvvəlində onun limiti sıfırlanır. Hazırda təbii qazdan güzəştli tariflə istifadədə ən aşağı limit 1200 kub metrdir.

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**




## Avtobuslarda gedişhaqqı bir manat olacaq?

**İctimai nəqliyyatda - avtobusda gedişhaqqının məbləğinin artacağı ilə bağlı iddialar yayılıb. Bir sıra xəbər portallarında və sosial şəbəkələrdə qeyd edilir ki, ictimai nəqliyyatda gedişhaqqı təxminən 1 manat olacaq.**

Buna təsir edən faktorlar kimi nəqliyyat xərclərinin ildən-ilə artması, texniki xidmət və ehtiyat hissələrinin bahalaşması göstərilir.

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Müşfiq Cəfərov** Modern.az-a açıqlamasında ictimai nəqliyyatda gedişhaqqının artırılması ilə bağlı yayılan fikirlərin ajiotaj olduğunu bildirib: “Düşünürəm ki, avtobusda gedişhaqqının artacağı ilə bağlı yayılan iddialar ajiotajdır. Hazırda bununla bağlı nə hökumət, nə də aidiyyəti qurum tərəfindən açıqlama var. Tarif Şurası da toplaşmayıb. Bu, sadəcə olaraq, insanlar arasında yayılan söz-söhbətdir. Artım sonuncu dəfə metro və avtobuslarda eyni vaxtda olub. Həmin artımın üzərindən uzun vaxt keçməyib. Hələ ki bu məsələyə baxılacağını güman etmirəm. Bununla belə, Tarif Şurasının hansı addımı atacağını mən də deyə bilmərəm. Lakin şəxsən bu yaxınlarda hər hansı artımın olacağını gözləmirəm”.

Qeyd edək ki, hazırda ictimai nəqliyyatda minimal gedişhaqqı 50 qəpik təşkil edir.

İctimai nəqliyyatda gedişhaqqı sonuncu dəfə 2024-cü il iyunun 30-da dəyişib. Həmin vaxt qərar Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası tərəfindən verilib. Qərara əsasən, ictimai nəqliyyatda tariflər bir gediş üzrə 50 qəpik olub. Xatırladaq ki, əvvəllər metro və avtobuslarda gedişhaqqının nə qədər olacağı barədə qərarı Tarif Şurası verirdi. Ancaq bu qayda 2023-cü ildən dəyişib.



## “İçərişəhər”də ağaclar nömrələnir

**“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə layihəsi çərçivəsində İçərişəhərdəki bütün ağacların qeydiyyatına və nömrələnməsinə start verilib.**

Hər bir ağacın üzərinə xüsusi nömrələnmiş inventar lövhələri vurulur, həmin inventar lövhələrində ağacın kodu və onun elektron uçot vərəqinə keçid imkanı yaradan QR-kod yerləşdirilir. İnventarlaşdırma nəticəsində İçərişəhərin bütün yaşıllıqları “Şəhər yaşıllıqlarının reyestri” informasiya sisteminə daxil ediləcək. Proses tam zərərsiz üsulla aparılır və #inventar lövhələri ətraf mühit təsirlərinə davamlı materialdan hazırlanır.

Layihənin məqsədi İçərişəhərin yaşıllıqlarını qorumaq, ekoloji mühiti yaxşılaşdırmaq və gələcək nəsillərə yaşıl irs ötürməkdir.

Hər kəsi yaşıllıqların qorunmasına və artırılmasına dəstək olmağa, təbiətimizin yaşıl gələcəyi naminə birgə fəaliyyət göstərməyə çağırırıq. İçərişəhərin yaşıllıqları tarixi abidələrlə yanaşı, gələcək nəsillərə ötürəcəyimiz ən qiymətli sərvətlərdən biridir.

YENİ MÜSAVAT
N 153 (8763) 29 avqust 2025



# Rusiya Minsk Qrupunun ləğvini istəmir?

**Minsk Qrupunun və əlavə strukturlarının bağlanması ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət əsasında irəli sürülmüş qərar layihəsi bu qurumun iştirakçı dövlətləri arasında yayılıb.**

Bunu xarici işlər naziri Ceyhun Bayramov Nazirlər Kabinetində prezident İlham Əliyevin Vaşinqton səfərinə həsr olunan xüsusi iclasda çıxışı zamanı deyib.

Nazir qeyd edib ki, iştirakçı dövlətlər qərarın qəbulu üçün lazımı prosedurları dəstəkləməyə çağırılıb: "Qərarın sentyabrın 1-də qəbulu gözlənilir".

O da var ki, ATƏT-in qərarları konsensus əsasında qəbul edilir. Yəni üzv dövlətlərdən biri veto qoysa qərar qəbul olunmayacaq. Minsk Qrupunun 11 üzvü var. Ümumiyyətlə, üzvlərdən birinin Minsk Qrupunun buraxılmasına qarşı ola biləcəyi riski varmı?

Sözügedən məsələ ilə bağlı fikirlərini Bakı-xeber.com-la bölüşən **AMİP Ali Məclisinin sədri Rəşad Bayramov** xatırlatdı ki, Azərbaycan və Ermənistan rəhbərləri Vaşinqton görüşündə Minsk Qrupunun ləğvi ilə bağlı ATƏT sədrinə müraciət ünvanlayıblar: "Birgə müraciətdən sonra Minsk Qrupunun ləğvi ilə bağlı prosesə start verilib. ATƏT-in birgə görüşündə yekun qərarın veriləcəyi gözlənilir. Düşünürəm ki, ABŞ və Fransa MQ-nin ləğvini dəstəkləyirsə, ATƏT-ə üzv olan digər ölkələr də eyni mövqedən çıxış edəcək. Bu məsələdə susan və mövqe bildirməyən hələ ki Rusiyadır. Ancaq münaqişə tərəflərinin artıq quruma ehtiyacın olmadığını bəyan etmələri, münaqişənin bitməsi, sülh sazişinin paraflanmasının baş verməsi kimi hadisələr fonunda Moskvanın veto qoyması absurd görsənər. O qədər absurd görsənər ki, düşünmürəm Rusiya özünü o dərəcədə cılız vəziyyətə salsın. Başqa bir tərəfdən isə prinsip etibarilə Rusiyanın ATƏT-in Minsk Qrupunun saxlanılması ilə bağlı məsələdə israrı da əslində heç nəyi dəyişməyəcək. Yəni qurum onsuz da fəaliyyət göstərmir. Çünki MQ-nin 3 həmsədrindən 2-si artıq bununla bağlı bəyanatla çıxış edib və qurumun ləğvini dəstəklədiklərini bildirib. İkinci bir tərəfdən, qurumun fəaliyyəti üçün haqqında danışdığımız təsisatlar öz fəaliyyətlərini ATƏT-in müvafiq maliyyəsi hesabına həyata keçiriblər. Ona görə də bu məsələ müzakirə edilib çoxluq tərəfindən dəstəklənəcəyi halda, bura artıq əlavə maliyyənin yönələcəyi real deyil. O baxımdan, çox güman ki, müsbət qərar qəbul ediləcək və veto qoyan olmayacaq. Çünki Rusiya israr edərsə, bu, heç bir normal məntiqlə uzlaşmayacaq. Hər halda, Moskva bunu nəzərə alacaq".

# Azərbaycanın Strasburqa qayıtmaq şərtləri

## AŞ PA-ya ehtiyacımızın olmadığı il yarımda bəlli oldu




**Ötən ilin yanvar ayının 24-də Avropa Şurası Parlament Assambleyası (AŞ PA) Azərbaycan nümayəndə heyətinin səsvermə hüququndan məhrum edilməsinə dair qətnamə qəbul edib. Qətnamənin müzakirəsi zamanı 76 deputat Azərbaycanın əleyhinə, 10 deputat lehinə səs verib, 4 deputat bitərəf qalıb. 16 deputat isə səsvermədə iştirak etməyib. Səsvermə zamanı Türkiyə (9 deputat) və Albaniya (1 deputat) nümayəndələri sənədin əleyhinə səs veriblər.**

Buna cavab olaraq, Azərbaycan nümayəndə heyəti öz fəaliyyətini dayandırıb.

Azərbaycanın yenidən bu Avropa təşkilatında təmsil olunub-olunmayacağı hələlik məlum deyil.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirib ki, Avropa Şurası Azərbaycanı incidən qətnaməyə görə üzr istəməklə kifayətlənməməlidir: "Söhbət üzr istəməkdən getmir. Təbii olaraq, Azərbaycan əleyhinə qətnamə qəbul etməklə böyük səhv etmişdilər. Qətnamənin özünün mətni dəyişdirilməlidir. Orada Azərbaycana qarşı ağlasığmaz ittihamlar var. Amma üzr istəyib, sabah öz siyasətlərini yürüdən insanları, təşkilatları biz çox görmüşük. Söhbət üzr istəməkdən getmir. Onların üzləri elədir ki, bu gün üzr istəyib, sabah öz siyasətlərini yürüdəcək. Söhbət təşkilatın içərisində köklü, əsaslı dəyişiklikdən, bu günün siyasətini, Azərbaycanın yaratdığı yeni reallığı, ABŞ-nin təklif etdiyi gündəmi qəbul etməkdən gedir. Bu baş verəcəksə, onda hansısa perspektivlər gündəmə gələ bilər. Yox, bunlar, sadəcə, yenə də baş aldatmaqla məşğul olub, hansısa formada ikili standartlarla sözdə bir şey deyib, əməldə ayrı addımlar atacaqsa, bunun heç bir mənası yoxdur".

Qeyd edək ki, Gürcüstan da bu ilin yanvarından AŞ PA-dakı fəaliyyətini dayandırıb. Avropa Şurası Gürcüstandan isə ötən ilin oktyabrında bu ölkədə keçirilmiş parlament seçkilərinin nəticələrinin ləğvini, qanunsuz aksiyalarda tutulanların azadlığa buraxılmasını, yeni parlament seçkilərinin keçirilməsini tələb etdiyi üçün Gürcüstan nümayəndə heyəti də fəaliyyətini dayandırmaq məcburiyyətində qaldı. İlyarım əvvələdək Avropa Birliyinə üzvlük prosedurlarından keçən Tiflis təkcə Brüsselin nəzərindən düşməyib, Strasburq da Gürcüstan hakimiyyətini qurumdan çıxarmaqla hədələyir. Motiv dəyişməyib. Gürcüstan hakimiyyəti son parlament seçkiləri ərəfəsi qərbpərəst QHT-lərin "əl-ayağını" qanunlarla yığışdırıb ki, bu da "Gürcü Arzusu"nu "Rusiya ilə işbirliyində" ittiham etmək üçün bəhanə verib. İndi AŞ PA-da Cənubi Qafqazda səsvermə hüququ qalan Ermənistandır. Bu vəziyyət Cənubi Qafqaza hansı perspektivlər vəd edir? Avropa Şurası artıq nüfuzunu itirmiş bir platforma ola bilər, amma həm Bakı, həm Tiflis bu qurumdan ayrılmaqla nə qazana, nə itirə bilər?

**Milli Məclisin deputatı Aydın Hüseynov** "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanın 30 il ərzində müxtəlif platformalarda, o cümlədən AŞ PA səviyyəsində aparılan müzakirələrdən, qəbul olunmuş qətnamələrin masa üzərində qalmasından sonra ərazi bütövlüyünü və suverenliyini təkbaşına təmin etməsi bir çox ölkənin, beynəlxalq təşkilatın ürəyincə olmadı: "Hesab etdilər ki, Bakı onların iradəsindən kənar hərəkət etdiyi üçün cəzalandırılmalıdır. Lakin unudurlar ki, Azərbaycan üçün nəinki AŞ PA-da səsvermə hüququnun dondurulması, bu qurumun özü belə artıq heç bir əhəmiyyət kəsb etmir. Azərbaycan vaxtilə Qarabağ probleminin həllinə olan ümidlərə görə Avropa Şurasına üzv olmuşdu. Amma uzun illər qurum Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərin işğalı faktına qarşı heç bir tədbir görmədi, yalnız hüquqi çəkisi olmayan azsaylı bəyanatlarla kifayətləndi. AŞ PA-da Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən, Ermənistanı işğal etdiyi ərazilərdən çıxmağa çağıran bir neçə qətnamə qəbul olunsa da, bu qətnamələrin icrası üçün heç bir addım atılmadı. AŞ PA bu illər ərzində üzvü olan bir ölkənin-Ermənistanın digərinin-Azərbaycanın ərazisini işğal altında saxlaması faktına göz yumdu, işğalçı dövlətin səs hüququnun məhdudlaşdırılması haqda belə düşünmədi. Artıq Qarabağ problemi həll olunub. Azərbaycanın hazırda Avropada heç bir nüfuzu olmayan Avropa Şurasına ehtiyacı yoxdur. Azərbaycan nümayəndə heyətinin bu qurumda fəaliyyətini dayandırması qərarının doğru qərar olduğu aradan keçən müddətdə sübuta yetib. Azərbaycan 2001-ci ildə bu təşkilata üzv olandan bəri ermənipərəst, islamofob qüvvələr bu təşkilatdan daim Azərbaycana qarşı vasitə kimi istifadə edib".

**Deputat qeyd etdi ki, bu təşkilata üzvlük Azərbaycana demək olar ki, heç nə verməyib:** "Avropa Şurası və AŞ PA Azərbaycana və Türkiyəyə qarşı daim qərəzli, qeyri-obyektiv mövqe nümayiş etdirib. Azərbaycana qarşı qərəzli mövqedən, yanlış qərardan imtina edilməyəcəksə, bizim verdiyimiz doğru qərara yenidən baxacağımızı gözləməsinlər. Azərbaycan güclü dövlətdir və AŞ PA-nın qərəzli mövqeyi Azərbaycanı doğru bildiyi yoldan çəkindirə bilməz. Bir il yarımda bir daha təsdiqləndi ki, Azərbaycanın AŞ PA-ya ehtiyacı yoxdur, onun işində iştirak etməməyimizdən nə isə itirmirik".

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə isə bildirdi ki, Azərbaycan bir il yarımdan çoxdur Avropa Şurası Parlament Assambleyasının işində iştirak etmir:** "Çünki AŞ PA Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirərək Azərbaycan nümayəndə heyətinin səsvermə hüququndan məhrum edilməsi ilə bağlı qərar qəbul etdikdən sonra Azərbaycan tərəfi AŞ PA-nın işində iştirak etməmək barədə qərar verdi və qərar qüvvədə qalır. Hətta xatırlayırsınızsa, Azərbaycan Prezidenti çıxışlarının birində dedi ki, Avropa məhkəmələrinin təyinatı zamanı Azərbaycan nümayəndə bu səsvermədə iştirak etmədiyi üçün biz Avropa məhkəmələrinin qərarlarını da tanımayacağıq. Bu Avropa Şurasına bir mesaj idi. Avropa Şurası Parlament Assambleyası Gürcüstanla da bağlı ədalətsiz qərar verdi və Gürcüstan da Azərbaycan kimi bu təşkilatın işində iştirak etmir. Cənubi Qafqaz ölkələrindən yalnız Ermənistanın AŞ PA-da fəaliyyəti və səs verməsi bizim üçün o qədər də önəmli deyil. Biz orada iştirak etmiriksə və Azərbaycanla, Gürcüstanla bağlı məsələlər müzakirə olunmadıqdan sonra orada başqa hansısa məsələlərin müzakirəsi zamanı Ermənistanın necə davranması bizim üçün önəmli deyil. Biz Avropaya inteqrasiya olmaq, Avropa ailəsinin üzvü olmaq istəyirdik, müəyyən öhdəliklər də götürmüşdük, milli qanunvericliyimizdə xeyli dəyişikliklər etmişdik. Amma Avropa Şurası bunları dəyərləndirmədi. Nəticə bəllidir. Azərbaycan AŞ PA-nın işində iştirak etməməklə heç nə itirmədi və heç nə qazanmadı. Sadəcə olaraq, biz qürurlu dövlət olduğumuzu, qərəzli davranışlara boyun əymədiyimizi ortaya qoymuş olduq. Nə qədər ki, Avropa Şurası Azərbaycana münasibətdə qərəzli münasibətdən imtina etməyib, Azərbaycan AŞ PA-nın işində iştirak etməyəcək. Gürcüstana qarşı Avropa Şurasının atdığı addım isə bu müddətdə Gürcüstanı əslində Rusiyaya müəyyən mənada yaxınlaşdırdı. Avropa Şurası Avropaya sürətli inteqrasiya yolunu seçmiş Gürcüstana bu yolda dəstək vermək əvəzinə, ona mane olmaq yolunu seçdi. İtirən Avropa Şurasıdır".

❑ **Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 153 (8763) 29 avqust 2025

# Bakıda Türkiyə ilə İsrail danışıqları - barışıq olacaqmı?

## Azərbaycan müttəfiq və dost ölkələr arasında gərginliyin pik dövründə vasitəçiliyə dair bütün gücünü səfərbər edib; prezidentin tərəflərə verdiyi o mesaj...

**Prezidenti İlham Əliyev bir neçə gün əvvəl İsrailin Azərbaycanda yeni təyin olunan səfiri Ronen Krauszun etimadnaməsini qəbul edib. Yeni səfir bundan az sonra Haqqın.az-a müsahibə verib. O, İsrail-Türkiyə münasibətlərindəki gərginliyə də toxunub.**

“Sizcə, Ankara ilə Tel-Əviv arasındakı münaqişə Fələstin məsələsi ilə məhdudlaşır, yoxsa bu, regionda nüfuz uğrunda daha geniş mübarizənin nəticəsidir” sualına yəhudi səfir belə cavab verib: “İsrail bir çox problemlərlə üzləşir. Əsas təhdidlərimiz İranın dəstəklədiyi qüvvələrlə bağlıdır, ona görə də biz vaxtaşırı hərbi əməliyyatlar keçirməyə məcbur oluruq. Tehran tərəfindən də dəstəklənən Yəmən husilərinə qarşı fəaliyyətimiz davam edir.




Türkiyəyə gəlincə, sizə xatırlatmaq istərdim: 2023-cü il oktyabrın 7-dək ölkələrimiz arasında münasibətlər tədricən yaxşılaşırdı. Əvvəlki illərdə siyasət, müdafiə, biznes sahələrində səmərəli əməkdaşlığımız olub. İsraillilər Türkiyədə istirahət etməyi, Antalya, Kəmər, İstanbul və Ankaranı ziyarət etməyi sevirdilər. Qarşılıqlı əlaqə səviyyəsi görünməmiş dərəcədə yüksək idi; xarici şirkətlər arasında İsrailə ən çox uçuşu Türk Hava Yolları həyata keçirib. Təəssüf ki, bu gün bu əlaqələr kəsilib".

Səfir deyib ki, münasibətlərdəki gərginliyə baxmayaraq, əlaqələrin bərpası üçün perspektiv var: “İsrail əvvəlki əməkdaşlıq səviyyəsinə qayıtmağa hazırdır, lakin yəhudi dövlətini tənqid etməsi bəzən diplomatik normalardan kənara çıxan Ankaradan çox şey asılıdır. Bu problemləri aradan qaldıra bilsək, yenidən güclü əlaqələr qura bilərik”.

Səfir Türkiyə ilə İsrail arasında Bakıda məxfi danışıqların aparıldığı barədə məlumatlara münasibət də bildirib. “Mən ilk növbədə Azərbaycana vasitəçilik səylərinə görə təşəkkür etmək istərdim. Bu məsələdə Bakının rolu son dərəcə müsbətdir və bu, hər iki tərəfə danışıqlar masasına qayıtmağa kömək etdi. Bu, mühüm addımdır və bunun sayəsində çətin məsələləri və çağırışları, o cümlədən Türkiyənin Suriyadakı rolunu müzakirə edə bildik. Suriya İsrailin qonşusudur və bu kontekstdə suriyalılarla aydın əlaqələr qurmalıyıq. İnanıram ki, Azərbaycanın vasitəçiliyi ilə biz tərəqqiyə nail olacağıq və bir-birimizi daha yaxşı başa düşəcəyik”.

**Yada salaq Prezident İlham Əliyev “Əl-Ərəbiyyə” telekanalına müsahibəsində də bu barədə danışıb.** “Biz iki ölkə arasında normallaşma üçün imkan yarandığını görəndə yardımçı olmağa çalışırıq. Türkiyə ilə İsrail arasında normallaşmanın birinci mərhələsində Azərbaycanın rolu hər iki ölkə tərəfindən qiymətləndirilib. Bilirsiniz ki, İsrail Prezidenti İsxak Hersoq Türkiyəyə səfər etdi. Biz şad olduq ki, iki ölkə arasında ümumi dil tapılır. Hazırda isə Türkiyə ilə İsrail arasında münasibətlər hər zaman olduğundan daha gərgindir. Ona görə də əgər bizdən kömək etmək xahiş olunsa, biz bunu edərik. Əgər edilməsə, ola bilsin ki, biz, sadəcə olaraq, ümumi dil tapmağa yardım etmək üçün çox da ictimailəşdirilməyən diplomatik səylər göstərməyə çalışarıq”, - deyə dövlət başçısı bildirib.

Türkiyə-İsrail münasibətləri Azərbaycan üçün son dərəcə vacib və həssas bir məsələdir. Xüsusilə bu münasibətlərin gərginliyin pik həddinə çatdığı, Qərb mediasında hətta İsrail-Türkiyə müharibəsi ehtimalının müzakirə olunduğu bir dövrdə, Azərbaycanın bütün gücü ilə proseslərin müsbət məcraya yönəlməsinə, iki ölkə arasında yeni, nikbin, hər iki tərəf üçün sərfəli və şərəfli bir səhifənin açılmasına çalışması, təkcə əsl dost və müttəfiq davranışı deyil, eyni zamanda, təbii və məsuliyyətli mövqedir.

**Yaxın Şərq üzrə politoloq Rüstəm Tağızadənin sözlərinə görə, hər bir ölkənin milli maraqları var. Onun fikrincə, Türkiyə ilə İsrailin maraqları Suriyada daha çox toqquşur**: “Düşünürəm ki, burada druzlarla bağlı İsrailin istəkləri müəyyən qədər nəzərə alındı. Çünki əks halda, Türkiyə ilə İsrailin hərbi qarşıdurması baş verə bilərdi. Burada Azərbaycanın böyük rolu oldu və Bakıda keçirilən görüşlər təsir etdi”.

**R.Tağızadə hesab edir ki, Türkiyə Qəzza məsələsini həll etmək istəyir, amma daha ciddi təsir mexanizmləri olmalıdır:** “Ancaq əsas məsələ odur ki, İsraillə Türkiyə arasında hərbi insident gözlənilmir. Bu gərginlik var idi. Sadəcə, hər iki tərəfin güclü orduları var və eskalasiya onların zəifləməsinə səbəb ola bilərdi.

**Türkiyədə fəaliyyət göstərən siyasi ekspert Ramiyə Məmmədova Azərbaycan qədər Ankara-Tel-Əviv barışığında maraqlı olan üçüncü tərəf görmür. Onun bildirdiyinə görə, bu gərginliyi yenidən alovlandıran baş nazir Netanyahunun qondarma erməni soyqırımını tanıması oldu və rəsmi Ankara sərt reaksiya verdi:** “İsrailin Qəzzada həyata keçirdiyi əməliyyatlar nəticəsində minlərlə dinc fələstinli qətlə yetirilir. Onların sırasında uşaqlar, qadınlar çoxluq təşkil edir. Azərbaycan antiterror əməliyyatında bir dinc erməniyə güllə atmadı. Amma İsrail HƏMAS-la savaşda mülki əhali faktorunu nəzərə almır və beynəlxalq təzyiqlər də yetərli deyil. Bununla belə yəhudi baş nazir qondarma soyqırımdan danışır. Ona görə də Türkiyə ilə İsrailin əsas gərginlik nöqtəsi Fələstin bölgəsidir. Burada qətliamlat törədən tərəf Ankaranı uydurma genosiddə ittiham edir”.

**Təhlilçinin sözlərinə görə, tərəflərin gərginliyə səbəb olan ikinci yeri Suriyadır**: “Azərbaycan Türkiyə ilə qardaş və müttəfiq dövlətdir, İsraillə isə strateji tərəfdaşlıq, səmimi əlaqələr var. Ona görə də rəsmi Bakı qədər barışıqda maraqlı olan üçüncü tərəf görməzsiniz. Çünki biri müttəfiq, biri strateji tərəfdaş. Onların toqquşması bizə sərf etmir. Azərbaycan çalışır ki, tərəf saxlamasın. O baxımdan, Bakıda son danışıqlar müəyyən qədər irəliləyişə səbəb olub. Ən azından hərbi qarşıdurma ritorikasından çəkiliblər. Sadəcə, Netanyahunun son bəyanatı vəziyyəti təzədən gərginləşdirir”.

**Ekspert əlavə edib ki, Azərbaycan regional bir aktora çevrilməkdədir və bunu güc mərkəzləri də müşahidə edirlər:** “Bakı ilk dəfə deyil ki, Türkiyə ilə İsrail barışığına can atır. Bir neçə il qabaq da buna nail olub. Eyni zamanda ABŞ Azərbaycanın bu mövqeyini bəyənir. Xüsusən də Tramp administrasiyası Bakının vasitəçilik rolunu dəyərləndirir. Nəzərə alaq ki, ABŞ lideri İsraillə, Amerikadakı yəhudi komitəsi və yevangelistlərlə çox sıx əlaqələrə malikdir, həmçinin Türkiyə lideri Ərdoğanı özünə dost hesab edir. Azərbaycan Prezidentini də dostu sayan Trampın indi Türkiyə-İsrail danışıqlarında Bakının rolunu qiymətləndirməsi göz qabağındadır”.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

## Tel-Əviv üçün Fələstin “yoxdur”

**ABŞ dövlət katibi Marko Rubio İsrailin xarici işlər naziri Gideon Saar ilə Qəzza zolağı, Suriya, Livan və İrandakı vəziyyəti müzakirə edib.**

Bu barədə ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin yaydığı məlumatda deyilir.

Qeyd olunub ki, ABŞ və İsrailin xarici siyasət idarələrinin rəhbərləri çərşənbə günü keçirilən görüşdə Qəzza, Livan və Suriya ilə bağlı əsas məsələləri müzakirə ediblər. Bundan əlavə, görüşdə İran da diqqət mərkəzində olub.

“Dövlət katibi və xarici işlər naziri Saar razılaşıblar ki, iki ölkə arasında sıx əməkdaşlığın davam etdirilməsi regionun təhlükəsizliyini və rifahını təmin etmək üçün zəruridir”, - sənəddə deyilir.

“Reuters”in daha bir xəbərinə görə, İsrailin xarici işlər naziri Fələstin dövlətinin mövcudluğu ideyasını rədd edib.

Belə ki, Rubio ilə keçirilən görüşdən sonra jurnalistlər İsrailin xarici işlər nazirindən Fələstin dövləti ilə bağlı planın nə olduğunu soruşublar.

O, cavabında belə bir dövlətin olmayacağını bildirib.

## Türkiyənin vitse-prezidentindən mühüm açıqlama

**Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz Rusiya Prezidenti Vladimir Putinin İstanbulda Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşə biləcəyinə inanır.**

“Report”un məlumatına görə, o, bu barədə “Habertürk” telekanalının efirində deyib

“Zelenski və Putin İstanbulda görüşə bilər. Niyə də olmasın?”, - deyən Yılmaz Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Rusiya-Ukrayna münaqişəsinin həlli istiqamətində göstərdiyi səyləri xatırladıb.

“O, hər iki tərəfin etimadını qazanan liderdir. Qara dəniz taxıl təşəbbüsü, əsirlərin mübadiləsi ilə bağlı konkret nəticələr əldə edilib. Türkiyə Ukrayna münaqişəsinin həlli üçün həmişə alternativdir”, - Yılmaz qeyd edib.

## Yəhudi səfir “Qarabağ”ı təbrik edib

**İsrailin Azərbaycandakı səfiri Ronen Krausz “Qarabağ” futbol klubunun Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazanması ilə bağlı paylaşım edib.**

“Report” xəbər verir ki, səfir bu barədə X sosial media hesabında yazıb.

“Tofiq Bəhramov adına Respublika Stadionunda oyunu izləmək və 30 min Qarabağ azarkeşi ilə bu möhtəşəm nailiyyəti birgə qeyd etmək mənim üçün böyük sevinc idi. Çempionlar Liqasının əsas mərhələsində sizə uğurlar arzulayıram. İrəli, Qarabağ! İrəli, Azərbaycan!” - səfir qeyd edib.

# İlham Əliyevin mühüm Çin səfəri

## Politoloq: "ŞƏT sammiti dönüş nöqtəsi ola bilər"

**Çində Yaponiya işğalına qarşı Çin xalqının Müqavimət müharibəsində qələbənin və II Dünya müharibəsinin başa çatmasının 80 illiyi münasibətilə keçiriləcək tədbirlərdə 26 ölkənin dövlət və hökumət başçıları iştirak edəcək.**

Bu barədə Çinin "Xinhua" agentliyi məlumat yayıb.

Məlumata görə, tədbirdə Rusiya, Şimali Koreya, Kamboca, Vyetnam, Laos, İndoneziya, Malayziya, Monqolustan, Pakistan, Nepal, Maldiv adaları, Qazaxıstan, Özbəkistan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Belarus, Azərbaycan, Ermənistan, İran, Konqo Respublikası, Zimbabve, Serbiya, Slovakiya, Kuba və Myanma rəhbərlərinin iştirakı gözlənilir.

Qeyd edək ki, 3 sentyabrda Pekində genişmiqyaslı hərbi parad təşkil ediləcək. 70 dəqiqə davam edəcək mərasimdə Çin Xalq Azadlıq Ordusu ənənəvi qoşun növləri ilə yanaşı, yeni hərbi birlikləri də nümayiş etdirəcək. Parad zamanı 45 hərbi dəstə, müasir raket texnologiyaları, tanklar, aviasiya və yerli istehsal olan pilotsuz uçuş aparatları təqdim olunacaq.

Xatırladaq ki, Çin hökuməti bu cür tədbirləri 1949-cu ildən etibarən, Xalq Respublikasının yaranmasından sonra, Pekinin mərkəzi Tyananmen meydanında keçirir. Sonuncu dəfə oxşar tədbir 2019-cu il oktyabrın 1-də, respublikanın 70 illiyi münasibətilə təşkil olunmuşdu.

Ermənistan xarici işlər naziri Ararat Mirzoyan sensasion açıqlama ilə çıxış edib.

O bildirib ki, həm Ermənistan, həm də Azərbaycan artıq Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzvlük üçün müraciət təqdim ediblər. "Biz müraciət etmişik, Azərbaycan da müraciət edib. Yaxınlaşan ŞƏT sammitinə bizi tərəfdaş qismində dəvət ediblər. Biz iştirak edəcəyik. Hesab edirik ki, həm biz, həm də Azərbaycan bu quruma qoşula bilər və qoşulmalıdır, - deyə Mirzoyan vurğulayıb.

Qeyd edək ki, ŞƏT-in sammiti avqustun 31-dən sentyabrın 1-dək Tyançzin şəhərində keçiriləcək.

**Politoloq Fərhad Məmmədov** sammiti ilə bağlı fikirlərini bölüşüb. O bildirib ki, sammit zamanı həm təşkilat daxilində, həm də iştirakçı ölkələr arasında vacib siyasi və iqtisadi məsələlər müzakirə olunacaq: "Budəfəki sammit iqtisadi ölçü baxımından dönüş nöqtəsi ola bilər. Çin uzun müddətdir ki, ŞƏT çərçivəsində iqtisadi və rəqəmsal əməkdaşlığı gücləndirməyə çalışır.

**F.Məmmədov hesab edir ki, ŞƏT bu il bir sıra ciddi çağırışlarla üzləşib:** "Hindistan və Pakistan arasındakı gərginlik təşkilat üçün real sınağa çevrilib. Sammitdə bu qarşıdurmanın yekun sənədlərə təsir etməsi mümkündür."



**Politoloq həmçinin qeyd edib ki, İran ətrafında formalaşan situasiya da vahid mövqe qəbulunu çətinləşdirir**: "İran ŞƏT-in üzvüdür, lakin ABŞ və İsrailin İrana qarşı hərbi addımları fonunda Hindistanın fərqli mövqeyi yekdil qərarların qəbuluna imkan vermir".

Onun sözlərinə görə, Çinlə Hindistan arasında münasibətlərin konstruktiv fazaya keçməsi isə sammitin ümumi ab-havasına müsbət təsir göstərə bilər. Azərbaycanın təşkilatla münasibətlərinə toxunan politoloq qeyd edib ki, Bakı bu gün ŞƏT-də dialoq üzrə tərəfdaş statusundadır və üzvlüklə bağlı niyyətini ortaya qoyub: "Çində keçiriləcək sammit bu baxımdan həlledici ola bilər. Azərbaycanın Asiya siyasəti ŞƏT-lə əməkdaşlıqdan keçməlidir".

**O bildirib ki, təşkilatda Orta Asiya ölkələrinin demək olar ki, hamısı təmsil olunur**: "Türkmənistandan başqa bütün Orta Asiya dövlətləri ŞƏT-ə üzvdür. Onlar Azərbaycanın strateji tərəfdaşlarıdır. Prezident İlham Əliyevin bu region üzrə məsləhətləşmələrdə iştirakı da üzvlüyün məntiqi davamı kimi dəyərləndirilə bilər".

**F.Məmmədov əlavə edib ki, Ermənistan da ŞƏT-ə üzv olmaq niyyətini açıqlayıb:** "Azərbaycan və Ermənistan paralel şəkildə bu prosesi aparırlar. Gələcəkdə Gürcüstanın da bu formata cəlb olunması region üçün ümumi baxışın formalaşmasına imkan verərdi".

**Politoloq Azərbaycanın iqtisadi baxımdan da ŞƏT platformasında maraqlı tərəf olduğunu vurğulayıb:** "İqtisadi və rəqəmsal sahədə əməkdaşlıq Azərbaycanın gündəliyində olan məsələlərdəndir. Bu, ŞƏT-də dərin inteqrasiyanı zəruri edir".

**Sammit çərçivəsində liderlərin keçirəcəyi ikitərəfli görüşlərə də toxunan Məmmədov qeyd edib:** "Azərbaycan-Rusiya, Azərbaycan-Ermənistan və Ermənistan-Rusiya liderləri arasında mümkün təmaslar diqqət mərkəzində olacaq. Hər üç görüş həm ikitərəfli, həm də regional səviyyədə əhəmiyyətlidir".

❑ **"Yeni Müsavat"**

# "Ayravani, ayravani, Avropa..."

## Ekspertlərə görə, iqtisadiyyata və logistikaya nəzər saldıqda İrəvanın Aİ-yə üzvlüyü hətta yaxın illərdə belə mümkünsüzdür

**Ermənistanın Avropa İttifaqına üzvlüklə bağlı müzakirələri son aylar xeyli səngiyib. Erməni ekspertlərə görə, necə deyərlər "ayravani, ayravani, Avropa..." deməklə möcüzə baş verməsi - İrəvanın Aİ-yə üzvlüyü iqtisadiyyata və logistikaya nəzər saldıqda hətta yaxın illərdə belə mümkünsüzdür.**

Belə ki, 2024-cü ildə Ermənistan ixracatının yalnız 4,7%-i Avropa İttifaqına gedib, Aİ ilə ümumi ticarət dövriyyəsi isə cəmi 7,5% təşkil edib. Müqayisə üçün Moldova ixracının demək olar ki, 65%-ni Aİ-yə, Ukrayna isə 64%-ni ixrac edir. Ona görə də bu ölkələr üzvlüklə bağlı rəsmi danışıqlara başlayıblar. Ermənistanın göstəriciləri 10-15 dəfə aşağıdır. Güclü iqtisadi əlaqələr olmadan isə Brüssel üzvlük məsələsini belə müzakirə etməyəcək.

Ermənistan hazırda Avrasiya İqtisadi Birliyinin üzvüdür. Bu, Aİ qaydalarına uyğun gəlməyən vahid gömrük tarifi deməkdir. Avropa bazarına çıxmaq üçün İrəvan AİI-dən tamamilə çıxmalı, yüzlərlə texniki standartı yenidən yazmalı, vergi və gömrük sistemini dəyişdirməlidir. Praktikada bu, illər çəkəcək və çox böyük xərclər tələb edəcək.



Ekspertlər Ermənistanın dənizə çıxışının olmamasına da diqqət çəkir. Yeni Ermənistan faktiki olaraq qapalı sərhədlərlə əhatə olunub. Avropaya bütün ticarət müntəzəm qar uçqunlarının və kilometrlərlə tıxacların olduğu Gürcüstandan (Yuxarı Lars) və ya Poti və Batumi limanlarından keçir. Bu, nəqliyyatı bahalı və riskli edir. Aİ bir qərarla Ermənistanı "açə" bilməyəcək. Gürcüstan hələ 2014-cü ildə Aİ ilə azad ticarət sazişi imzalayıb, lakin orada da Avropaya ixracın payı ciddi şəkildə artmayıb - 12-16% arasında dəyişir. Səbəb sadədir: logistika Şərqi Avropa ilə müqayisədə daha bahadır. Əgər hətta Gürcüstan Aİ-yə ixracı kəskin şəkildə artıra bilməyibdi, o zaman Ermənistan üçün daha çətin olacaq. Bəli, Şimal-Cənub dəhlizi tikilir, Sünikdə çox kilometrlik tunellər planlaşdırılır, Avropa İnvestisiya Bankı bu yaxınlarda 236 milyon avro ayırıb. Amma bunlar onilliyin sonu üçün nəzərdə tutulan layihələrdir. Onlar başa çatana qədər Ermənistan mallarının Avropaya daşınması Rumıniya, Bolqarıstan və hətta Gürcüstandan həmişə baha olacaq.

Ermənistan ilk növbədə Avropaya ixracı ən azı 20-25%-ə çatdırmalı, yol və tunellərin tikintisini başa çatdırmalı, bir bazardan asılılığı azaltmalıdır. Yalnız bundan sonra üzvlük haqqında danışmaq üçün real ilkin şərtlər yaranacaq. Hələlik Aİ-yə üzvlüklə bağlı söhbətlər iqtisadi reallıqdan daha çox siyasi blef olaraq qalır.

**Milli Məclisin deputatı Azər Badamov "Yeni Müsavat"a açıqlamasında dedi ki, Ermənistanın Aİ-yə üzv olması siyasi motivlər üzərində qurulmuş yuxudur:** "Çünki Avropa İttifaqına daxil olmaq üçün Ermənistan Avrasiya İqtisadi Birliyindən çıxmalı və ticari-iqtisadi əlaqələrin istiqamətini dəyişdirməlidir. AİB-dən Ermənistanın uzaqlaşması real görünmür. Çünki bu iqtisadi təşkilatdan uzaqlaşarsa, Ermənistanın iqtisadiyyatı çökəcəkdir. Bu təşkilatdan ayrılması üçün Ermənistan ilk növbədə Avropa İttifaqı ilə ticarət dövriyyəsini kifayət qədər artırmalıdır. Bunun üçün isə logistika nəqliyyat əlaqələri qurulmalıdır. Bu əlaqələri qurmaq üçün isə mütləq şəkildə Zəngəzur dəhlizi fəaliyyət göstərməli və Türkiyə üzərindən yollar açılmalıdır. Biz 5 il əvvəl Zəngəzur dəhlizi terminini gündəmə gətirəndə Ermənistanda bundan çox narahat olurdular. İndi isə görürlər ki, Zəngəzur dəhlizi təkcə yolumuzun Naxçıvana açılması deyil. Bu həm də Ermənistanı tranzit ölkəyə çevirəcək yeganə layihədir. Həm də Avropa ilə ticarəti səmərəli qurmaq üçün bir imkandır".

**Deputat dedi ki, Ermənistanı Avropa İttifaqında gözləyən də yoxdur:** "Avropa İttifaqı siyasi maraqlar üzərində vədlər verir. Amma reallıq isə vədlərdən tamamilə uzaqdır. Aİ Türkiyəni müxtəlif bəhanələrlə illərdir ki, təşkilata üzvlüyə qəbul etmir. Bu baxımdan Ermənistanın yaxın gələcəkdə Aİ-yə üzv olması, bu təşkilatla ticarət balansının artırılması ancaq xəyaldan başqa bir şey kimi görünmür".

**İqtisadçı-ekspert Günay Hüseynova isə bildirdi ki, Ermənistanın Avropa İttifaqı arzusu növbəti 10 il üçün real görünmür:** "Aİ təkcə iqtisadi deyil, hüquqi və siyasi islahatlar da tələb edir. Hazırda Ermənistan büdcəsi iqtisadi islahatların icrası baxımından kifayət deyil. Bununla belə, ölkənin ixrac potensialı, məhsullarının Avropa bazarına ucuz və səmərəli çıxması baxımından da coğrafi mövqeyi əlverişli deyil. Belə ki, Azərbaycanın Türkiyə ilə quru sərhədləri bağlıdır. Gürcüstan vasitəsilə xarici bazara çıxarır, məhsulların bunun nəticəsində də logistika və daşınma xərcləri yüksək və nəticədə məhsul baha ərsəyə gəlmiş olur. Bu da iqtisadi şərtlərə uyğun deyil. Bundan əlavə Ermənistanın Sünik vilayətindən logistika və daşınma ilə bağlı tunel tikintisi planlaşdırılır və bu layihənin icrası üçün 236 milyon avroya yaxın vəsait tələb olunur. İqtisadi büdcə yetərli olmadığı üçün bu iş də icra olunmadı. Bu da onu deməyə əsas verir ki, iqtisadi büdcəsi yetərli olmayan ölkənin Avropa İttifaqı istəyi əsassızdır. Bundan əlavə, Avropa ittifaqı üzvlüyü üçün Ermənistan ixracı standartlara uyğun deyil: çünki həm texnoloji avadanlıq istehsalı yoxdur, həmçinin də istehsal etdikləri məhsul Avropa standartlarına tam olaraq uyğun deyil. Aİ standartlarını qarşılamaq üçün həmçinin kənd təsərrüfatı məhsulu tamamilə organik olmalıdır. Həmçinin Ermənistan ixdaldan asılılığı azaltmalı, geoiqtisadi şərait nəzərə alınaraq Rusiya ilə ticari tərəfdaşlıqda geri addım atmalıdır. Bu da təbii ki, mümkünsüzdür.

Bundan əlavə, Ermənistan Avrasiya ittifaqının üzvüdür, buna əsasən də bəzi şərtlər Avropa İttifaqının şərtləri ilə uyğun gəlmir. Bunun üçün də AİI dən çıxması lazımdır. Aİ-yə üzvlük həm zaman tələb edir, həm də bütün iqtisadi, siyasi, hüquqi şərtləri yerinə yetirmək lazım gəlir. Düşünürəm ki, Ermənistanın Avropa İttifaqı xəyalları Zəngəzur dəhlizinin açılması ilə əlaqədardır. Lakin qeyd etdiyim bir çox səbəblərin də icrası baxımından yaxın zamanda real görünmür".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 153 (8763) 29 avqust 2025

# Türk düşmənlərini narahat edən anons

## “Türk Dövlətləri Təşkilatı beynəlxalq arenada qlobal oyunçuya çevrilməkdən ibarətdir” deyən İlham Əliyevin mesajları hansı paytaxtlaradır?



**“Türk Dövlətləri Təşkilatı hazırda böyük potensiala malikdir. Azərbaycan daim bu qurumu gücləndirməyə sadiq olub. Bu, bir növ məşvərətçi qrup, şura, ölkələr qrupu kimi fəaliyyətə başlayıb, sonra isə transformasiya edib. O, böyük potensiala malikdir”. Prezident İlham Əliyev “Əl-Ərəbiyə” telekanalına Türk Dövlətləri Təşkilatı haqda danışarkən belə deyib.**

Prezident deyib ki, Türkiyə ilə Azərbaycanın çox sıx münasibətləri var və bu münasibətlər Şuşa Bəyannaməsinə əsaslanır: “Bu, hüquqi cəhətdən təkcə hər iki ölkə üçün deyil, bütün Türk dünyası üçün mühüm amildir. Keçən il biz Özbəkistanla müttəfiqlik münasibətləri haqqında müqavilə imzaladıq. Həmçinin Türk Dövlətləri Təşkilatının digər üzvləri ilə bizim strateji tərəfdaşlıq müqavilələrimiz və ya bəyannamələrimiz var. Beləliklə, bu, böyük potensialdır. Bizi köklərimiz birləşdirir və bu, təşkilatı nadir edir. Çünki digər beynəlxalq təşkilatlara baxsaq, onların hamısını deyil, bəlkə də bir qismini ortaq etnik qrup birləşdirir. Bəli, biz müxtəlif xalqlarıq, amma hamımızın kökləri ortaqdır və bu, türk etnik mənsubiyyətimizdən irəli gəlir. Ölkələrimizin əhalisinin sayı artır və bu da hər bir ölkə üçün vacib amildir. İqtisadi inkişafla dəstəklənəndə isə bu, üstünlük deməkdir. Ölkə kasıb olduğu zaman bəzən bunun mənfi nəticələri də olur. Amma bizim ölkələr kasıb deyil. Hər ölkə olmasa da, ölkələrimizin bir çoxu təbii sərvətlərə malikdir.

Bizim geniş coğrafiyamız var. Türkiyə qlobal miqyasda aparıcı hərbi gücdür və Türkiyə ordusu NATO daxilində ABŞ-dən sonra ikinci yerdədir. Azərbaycan Ordusu da özünü paradlarda deyil, döyüş meydanında nümayiş etdirdi. Həmçinin logistika. Bu gün dəhlizlərdən danışanda bizdən yan keçə bilməzsiniz. Siz bizim ərazimizdən, obyektlərimizdən istifadə edə bilərsiniz. Həm də vacib olan odur ki, təşkilatın bütün üzvlərində siyasi sabitlik, bir-biri və hamısı arasında dost münasibətlər mövcuddur. Bu, təşkilatı həqiqətən nadir edir. Ona görə də biz onu konkret layihələrlə, investisiyalarla, enerji, daşımalar, mədəniyyət layihələri ilə möhkəmləndirməliyik. Ona görə də mən gələcəkdə bu təşkilatı mühüm qlobal iştirakçılardan biri kimi görürəm. Beləliklə, bizim fikrimiz beynəlxalq arenada rol oynaya bilən, təkcə daxili məsələlərlə məşğul olmayan qlobal oyunçuya çevrilməkdən ibarətdir ki, həm də beynəlxalq arenada sabitləşdirici, müsbət rol oynasın və qonşular üçün imkanlar yaratsın. Bununla da biz belə bir nəhəng coğrafiyada heç kimə təhlükə törətməyən, lakin çoxları üçün fürsət hesab edilən güclü birlik qura biləcəyimizi nümayiş etdirək".

Qeyd edək ki, son aylar dünyada TDT-yə diqqət artıb, bu birliyi arzulamayan bəzi xristian ölkələrindən, eləcə Rusiyadan narahat siqnallar gəlməkdədir. “Türk Dövlətləri Təşkilatı öz Avropa İttifaqını qurur”, - deyə narahatlıqlar var. Prezident İlham Əliyevin bu açıqlamaları həmin dairələrin narahatlığını daha da artıracaq. Çünki dövlət başçısı TDT-nin həqiqətən də dünya düzəninə təsir edəcək iddialı təşkilata çevrilmək iddiasını təsdiqləyib.

**Siyasi təhlilçi Sona Əliyeva “Yeni Müsavat”a bildirib ki, Türk Dövlətləri Təşkilatı son üç ildə xeyli güclənib:** “Bu təşkilat dünyanın diqqətini özünə çəkməyi bacarıb. Ölkə başçısı İlham Əliyev də "Əl Ərəbiyyə"yə müsahibəsində bu məqama toxundu. Çünki TDT-də təmsil olunan ölkələrin böyük əksəriyyəti karbohidrogen yataqlara, təbii sərvətlərə malik olan məmləkətlərdir. Üstəlik, Təşkilata üzv ölkələrin prezidentləri tərəfindən həyata keçirilən fəaliyyətlər Türk dünyasının ortaq maraqlarına xidmət edir. İstanbul, Səmərqənd və Astana sammitlərindən sonra TDT-nin nüfuzunun daha da artdığını Qərb mətbuatı da dilə gətirir. TDT bu gün sadəcə liderlərin bir araya gəldiyi struktur olmaqdan çıxaraq, hər sahədə əməkdaşlığın inkişaf etdiyi, dərinləşdiyi bir quruma çevrilib.

Məsələnin digər tərəfi ondan ibarətdir ki, Türk Dövlətləri Təşkilatı artıq gələcəyin üçüncü qütbünü - Turan blokunu formalaşdırır. Yəni hazırda onun alt bünövrəsini hazırlayır. Beynəlxalq güclər, böyük oyunçular da bunun fərqindədirlər. Məhz bu səbəbdən də Turan Birliyini həzm edə bilməyən beyin mərkəzləri onun güclənməsindən əməlli-başlı narahatlıq keçirirlər. Bu baxımdan, Türk Birliyinin pozulmasına qarşı zaman-zaman alternativ həmlələr həyata keçirmək haqqında düşünürlər. Onlar anlayırlar ki, Türk Birliyi gələcəkdə təkcə siyasi yox, həm də hərbi-siyasi, iqtisadi güc mərkəzinə çevriləcək.

Bu baxımdan, Rusiya, Hindistan və Fransa kimi böyük oyunçular “şahmat taxta”sında yuxulayırlar ki, qəfil sərfəli gedişlər ağıllarına gəlsin. Amma qatar gedib. Türk Birliyinə qənim kəsilməyə çalışanlar bir çox hallarda onun daha da güclənməsinə şərait yaratmağa məcbur qalırlar".

Məsələ ilə bağlı Crossmedia.az-a açıqlama verən **deputat Tənzilə Rüstəmxanlı** isə qeyd edib ki, Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının son Zirvə görüşündə etdiyi çıxış və qeyd olunan müsahibədə yer alan fikirləri Azərbaycanın qardaş dövlətlərlə həmrəyliyini, regional əməkdaşlıqda fəal rolunu və Türk dövlətlərinin birgə gücünün daha da möhkəmlənməsi məqsədini bir daha nümayiş etdirir: “Türk dünyasının qarşılıqlı əlaqəsi Sovet İttifaqının dağılmasından sonra kiçik addımlarla başlamış və bu gün də artmaqda davam edir. Beynəlxalq sistemin strukturunda baş verən dəyişikliklər və regional hadisələr kontekstində təşkilat getdikcə daha çox əhəmiyyət kəsb edir. Bu kontekstdə Azərbaycan başda olmaqla, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın Türk Dövlətləri Təşkilatına verdiyi önəm getdikcə artır. Üzv dövlətlərin hər birinin strateji üstünlükləri var. Azərbaycanın regional gücü və enerji ehtiyatlarından ziyadə ərazi bütövlüyünü təmin etməklə strateji istiqamətdə təşkilatın koordinasiyalaşmasına töhfə verməsi buna misal ola bilər. Ona görə də müxtəlif məsələlərdə güclü tərəfləri olan dövlətlərin bir təşkilat daxilində qüvvələrini birləşdirməsi quruma üzv olan hər bir dövlətin maraqları baxımından vacibdir. Türk dövlətləri ilə münasibətlərin daha da möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz mövcud münasibətlərin əsasını təşkil edir. Çağdaş dünyamızda türkdilli dövlətlər arasında əməkdaşlıq daha da güclənib və yeni, daha düşünülmüş, praqmatik mərhələsinə start verilib. Yeni bir dövrə qədəm qoyan Azərbaycan beynəlxalq təşkilatlarla, eləcə də Türk Dövlətləri Təşkilatı ilə sıx əməkdaşlığa malikdir”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**




## Türkiyəni qoruyacaq “Polad Günbəz” nədir?

### Ərdoğan təqdimat mərasimində bildirib ki, 50 il əvvəl yuxu kimi görünən imkanları indi Türkiyə özü reallaşdırır

**Türkiyədə yeni “Polad Günbəz” hava hücumundan müdafiə sistemi təqdim olunub. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan təqdimat mərasimində çıxış edib.**

O bildirib ki, “Polad Günbəz” sistemi ilə Türkiyə hava hücumundan müdafiə sahəsində tamamilə yeni səviyyəyə çatacaq. “Türkiyənin hava hücumundan müdafiəsində yeni bir dövr açırıq. "Polad Günbəz" sistemimizə 47 yeni texnika əlavə olunacaq. Bu silahların istehsalına 460 milyon dollar sərmayə qoyulub. Öz radar və hava hücumundan müdafiə sistemlərimizi inkişaf etdirmədən heç bir ölkə, xüsusən də regionumuzda mövcud təhlükəsizlik problemləri şəraitində öz gələcəyinə arxayın ola bilməz. 50 il əvvəl yuxu kimi görünən imkanları indi özümüz reallaşdırırıq", - dövlət başçısı qeyd edib.

“Polad Günbəz”in çoxtəbəqəli ölçüsünü bir az daha izah etmək faydalı olar. “Polad Günbəz”i təsvir edərkən “Korkut”dan “Siper”ə qədər" ifadəsini işlətmək səhv olmaz.(Ordu.az).

Spektrin alt ucunda fəaliyyət göstərən “Korkut” ASELSAN istehsalı olan, 35 millimetrlik qoşa lüləsi olan çox alçaq hündürlükdə HHM sistemidir. Bu sistem yüksək atış sürəti və qəlpəli sursat konfiqurasiyası ilə xüsusilə kamikadze tipli Pilotsuz Uçuş Aparatı (PUA) təhlükəsinə qarşı getdikcə daha kritik rol oynayacaq.

“Polad Günbəz”dən danışarkən, “Korkut”u xüsusi qeyd etməyimizin başqa səbəbi də var. “Korkut” təkcə HHM qabiliyyəti deyil, həm də C-RAM (counter-rocket, artillery, mortar) sistemidir. Daha aydın desək, bu sistem düşmənin raket və artilleriya elementlərinə qarşı təsirli olması məqsədilə də hazırlanıb. Buna görə də “Polad Günbəz” hava və raketdən müdafiədən tutmuş C-RAM missiyalarına qədər geniş profildə hava məkanını qoruyacaq.

Spektrin ən yüksək hündürlük və ən uzun mənzil ucunda yerləşən “Siper” isə Türkiyənin ilk strateji “yer-hava” raket (SAM) sistemidir. 150 kilometrdən çox mənzili olan “Siper”in ikinci variantı çərçivəsində atış sınaqları ötən il həyata keçirilib. Təbii ki, “Korkut”dan “Siper”ə” olaraq təyin etdiyimiz qrupun ara təbəqələri də kritik əhəmiyyət kəsb edəcək.

“Hisar-A” və “Hisar-O” aşağı/orta hündürlükdə HHM sistemləri bu imkanlardan ən əhəmiyyətliləridir. HHM sistemləri arasında diqqət çəkən başqa bir qabiliyyət də “Gökdemir”dir. ABŞ-Norveç istehsalı olan NASAMS ilə oxşar əməliyyat konsepsiyasına əsaslanan “Gökdemir” “hava-hava” raketlərinin HHM buraxılış qurğularından buraxılaraq, “yer-hava” konfiqurasiyasında istifadə edilməsini də təmin edəcək.

Bu məqsədlə TÜBİTAK SAGE tərəfindən istehsal edilən “Gökdoğan” raket ailəsindən istifadə edilir. “Gökdemir” və NASAMS kimi sistemlər vacibdir, çünki strateji SAM sistemləri ilə müqayisədə daha sərfəli həll yolu deməkdir. Xüsusilə uzun təqvimləri əhatə edən münaqişə mühitlərində sursat ən kritik ehtiyaca çevrilir.

❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 153 (8763) 29 avqust 2025



# Təzə pirə ehtiyac

Zamin HACI
zaminhaci@gmail.com

**Təzə mövzu ortaya çıxıb. Nəsiminin Suriyanın Hələb şəhərindəki məzarını Azərbaycana gətirmək planı varmış. Guya bunu hökumətimiz özü istəyir, hazırda əl-Şaraa hökuməti ilə danışıqlar aparılır. Bunu təsdiqləyən hansısa rəsmi açıqlamaya rast gəlməsək də, camaat müzakirəyə başlamışdır. Gündəmi qəsdən dəyişdirmək üçün mən də mövzuya bir yandan kəskin şəkildə girmək istəyirəm. (Açığı, fərli gündəm yox idi, heç bilmirəm söhbət nədən gedir. Lakin "gündəmi dəyişdirmək" özü ifadə olaraq ləzzət edir, bizim hansısa xəyali iradəmizdən-filandan xəbər verir, qoltuğumuza yekəpər qarpızlar yerləşdirir).**

Nəsiminin indiki Azərbaycan ərazisində doğulub-yaşaması haqda heç bir tarixi mənbə, fakt yoxdur. Səhv eləmirəmsə, bunu ilk dəfə ötən əsrin 30-cu illərində filoloq alimlərimizdən biri (adını bilirəm, amma çox əmin olmadığım üçün yazmıram) yazıb, ortaya iddia olaraq sürüb. Əsas arqument də budur ki, Nəsiminin Şahxəndan adlı qardaşı varmış, hazırda Şamaxıda Şahxəndan türbəsi yerləşən qəbristanlıq var, deməli, Nəsimi də şamaxılı, şirvanlı və sonuc olaraq azərbaycanlıdır. Müqayisə üçün üzr istəyirəm, amma eyni məntiqlə Qurd qapısı qəbiristanlığımızı Ərgənəkonla əlaqələndirmək mümkündür.

Sözgəlişi, Şahxəndandan bir beyt çox məşhurdur və dövrümüzə gəlib çatıbdır, Nəsimiyə üz tutaraq deyib: "Gəl bu sirri kimsəyə faş eyləmə, Xani-xası aməyə aş eyləmə". Ana dilimizə tərcüməsi budur ki, sən niyə şeir yazıb sirləri açırsan, xalis yeməyi qara kütlənin önünə qoyursan. Bu, eynilə İncildə rast gəlinən "inciləri donuzların qabağına tökməyin" ayəsinin oxşarıdır.

Nəsiminin Türkiyə, İran ərazisində doğulub, yaşaması versiyaları var, ancaq bütün bu mübahisələrin kökündə əslində bizim indiki siyasi məkan olaraq Azərbaycan adlandırdığımız ərazinin sərhədləri və kimə azərbaycanlı deyilməsi diskursu durur. Nəsimi əsərlərinin dilindən göründüyü kimi türk idi, türkmən şairi idi və həmin türkmən tayfaları Çindən Anadoluya, Moldovadan Altaya qədər (içində, təbii, Azərbaycan da var) geniş coğrafiyada yayılmışdılar, indi də yaşayırlar. Əgər biz İraq türkmənlərinə "azərbaycanlı" desək, bu, gülməli alınır. Təxminən Bakıda yaşayan rusa rusiyalı, yəhudiyə israilli demək kimi.

Ol səbəbdən, Nəsiminin sümüklərini dərbədər eləməyə ehtiyac yoxdur. Laməkan adamdır, imkan verin qalsın öldüyü yerdə. Bizə şairin sümükləri yox, şeirləri maraqlı olmalıdır. O şeirlərin ölkəmizdə öyrənilməsi, təbliği hansı vəziyyətdədir? Bax, düşünüləsi, müzakirə ediləsi sual budur. Pir, ziyarətgah qurmaq eşqimizin səbəbi məlumdur. Millət təzə pir istəyir.

Nəsimi "Səni bu hüsni-camal ilə, kamal ilə görüb, Qorxdular həqq deməyə, döndülər insan dedilər" yazıbsa, biz insana hörmət qoyulan ərazi qurmalıyıq. Yoxsa adamların dərisini soyandan sonra yetmiş dəfə get Nəsiminin "Nəsimi bazarının yerində" (misal üçün) ucaldılan türbəsinə dolan - mənası nədir?

Qəbri yox idi, ancaq Bakıda heykəli var idi axı. Onun ətrafında əcaib binalar tikib bütün panoramasını, görkəmini kim pozdu? Paytaxtın həmin tarixi hissəsində o göydələnləri tikənlər Nəsimini öldürənlərdən mədəniyyət və qanacaq baxımından çoxmu irəli gediblər? Gedib-eləməyiblər. Elə həmin orta əsr təfəkküründə dururlar.

Sözgəlişi, eyni şey Nizaminin heykəlinin yanında maşın dayanacağı qayıranlara da aiddir. Dünyanın hansı ölkəsində ən məşhur ədəbiyyat xadimlərinin heykəlini maşın dayanacağıyla "örtərdilər"?

Bir də, çoxdan məni düşündürən məsələni müzakirəyə çıxarmaq istəyirəm: biz xalqımızın sevimlisi olan şəxslərin xaricdəki, "qürbətdəki" məzarlarını ölkəmizə daşımaq ənənəsinə malikik, buna sözüm yoxdur, bir çox hallarda alqışlanmalıdır, lakin niyə tərsini də etməyək? Azərbaycanda xalqın nifrəti qazanan o qədər tip var ki. Qoy onları da öləndə harasa bir başqa yerə daşısınlar.

İndi söz əlaqədar təşkilatlarındır.



# Ermənistanla Azərbaycan eyni təşkilatda?

## Politoloq: "Ararat Mirzoyan nəyisə qarışdırır"

**Ermənistan xarici işlər naziri Ararat Mirzoyan sensasion açıqlama ilə çıxış edib. O bildirib ki, həm Ermənistan, həm də Azərbaycan artıq Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzvlük üçün müraciət təqdim ediblər.**

"Biz müraciət etmişik, Azərbaycan da müraciət edib. Yaxınlaşan ŞƏT sammitinə bizi tərəfdaş qismində dəvət ediblər. Biz iştirak edəcəyik. Hesab edirik ki, həm biz, həm də Azərbaycan bu quruma qoşula bilər və qoşulmalıdır", - deyə Mirzoyan vurğulayıb.

Qeyd edək ki, ŞƏT-in sammiti avqustun 31-dən sentyabrın 1-dək Tyançzin şəhərində keçiriləcək.

Toplantının əsas mövzusu ŞƏT-in növbəti 10 il üçün inkişaf strategiyasının təsdiqi olacaq. Liderlər təhlükəsizlik, iqtisadi əməkdaşlıq, rəqəmsal texnologiyalar, nəqliyyat-logistika və mədəni-humanitar sahələrdə əməkdaşlığın gücləndirilməsini müzakirə edəcəklər. Çin sammit çərçivəsində yeni təşəbbüslər elan etməyi planlaşdırır.

Bəs Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına üzv olması realdırmı və üzv olmalıdırmı? Ermənistanın Azərbaycanın bu quruma üzv olmasını istəməyi nə ilə bağlıdır?

**Politoloq Yusif Bağırzadə "Yeni Müsavat"a bildirdi ki, Ararat Mirzoyan böyük ehtimalla nəyisə qarışdırır:** "Çünki Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatındakı hazırki statusu dialoq üzrə tərəfdaş statusudur. Bu da o deməkdir ki, Azərbaycan ŞƏT-in üzvü olmaq üçün gərək hələ təşkilatda müşahidəçi statusu almış olsun. Belə ki, ŞƏT-də təmsil olunmağın üç səviyyəsi mövcuddur. Dialoq tərəfdaşlığı ilkin mərhələdir, ikinci mərhələ müşahidəçi statusu almaq, yalnız son mərhələ tamhüquqlu üzvlükdür. Azərbaycanda 2024-cü ildə müşahidəçi statusu almaq üçün müraciət edib, amma hələ ki, bu məsələ öz müsbət həllini tapmayıb.

Məlumdur ki, ŞƏT 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Qurumun Səmərqənd sammitində İranın tamhüquqlu üzv kimi qəbul edilməsindən sonra ŞƏT üzvlərinin sayı 9 olmuşdu. Astana görüşündə isə Belarusun da tam hüquqlu üzv kimi qəbulundan sonra bu ölkələrin sayı 10-a çatdı. Bunlar Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan, İran və Belarusdur. Əfqanıstan, Monqolustan müşahidəçi üzvlər, Azərbaycan, Türkiyə, Kamboca, Nepal, Ermənistan, Misir, Səudiyyə Ərəbistan, Qətər, Bahreyn, Maldiv Respublikası, Myanma, BƏƏ, Küveyt və Şri-Lanka olmaqla 14 ölkə isə dialoq tərəfdaşlarıdır".

**Politoloq dedi ki, Şanxay Əməkdaşlıq Təşkilatını xüsusilə son illərdə beynəlxalq arenada nüfuzu artan, həm təhlükəsizlik, həm də iqtisadi inkişaf sahələrində daha mühüm rol oynamağa başlayan qurum kimi xarakterizə etmək olar:** "ŞƏT-in beynəlxalq hüquqi cəlbediciliyinin digər tərəfi onun hansısa bloka daxil olmaması, üçüncü ölkələrə və ya digər beynəlxalq təşkilatlara qarşı yönəlməməsi, bütün iştirakçıların bərabərliyi və suverenliyinə hörməti, daxili işlərə qarışmaqdan imtina etməsi və münaqişələrin qarşısının alınmasıdır. ŞƏT ilə əməkdaşlıq, xüsusilə 2016-cı ildə Azərbaycan dialoq tərəfdaşı statusu aldıqdan sonra inkişaf etməyə başlayıb. Bu da təbiidir. Çünki Azərbaycan hər zaman bütün iqtisadi təşkilatlarla bərabərhüquqlu əməkdaşlıqda maraqlı olub. Ölkəmiz hazırda da ŞƏT-in dialoq üzrə tərəfdaşı kimi regional təhlükəsizlik məsələləri, o cümlədən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri kimi kommunikasiya layihələrinin irəlilədilməsi üzrə təşkilatla faydalı əməkdaşlıq edir. Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatının əsas, müşahidəçi və dialoq tərəfdaşları ilə ticarət dövriyyəsi də yüksək səviyyədədir. Belə ki, Azərbaycanın ən böyük 4 ticarət tərəfdaşından 3-ü, yəni Rusiya, Çin və Türkiyə bu təşkilatın əsas üzvü və ya dialoq tərəfdaşıdır. Ümumiyyətlə isə ölkəmizin təşkilata üzv olan bir çox ölkələrlə olduqca yaxşı münasibətləri var. Pakistan, Çin, Özbəkistan, Qazaxıstan Qırğızıstan, Tacikistan kimi ölkələrlə və o cümlədən Belorusla da Azərbaycanın münasibətləri yüksək səviyyədədir".

**Y.Bağırzadə onu da qeyd etdi ki, ŞƏT və onun üzvləri Azərbaycanın da üzərində yerləşdiyi nəqliyyat dəhlizlərindən yararlanan ölkələrdir və bu reallıq Azərbaycanı təşkilat üçün maraqlı aktora çevirir:** "Son dövrlərdə Azərbaycanın təşkilata üzv olan ölkələrlə iqtisadi tərəfdaşlığının, xüsusilə də ticarət səviyyəsinin yüksəlməsi onu deməyə əsas verir ki, bu təşkilata üzvlük Azərbaycana dividentlər qazandıra bilər. Azərbaycan üçün təşkilata üzvlük bir sıra üstünlüklər vəd edir. İlk növbədə, regional təhlükəsizlik sahəsində daha sıx əməkdaşlıq imkanları yaranacaq. Eyni zamanda Çin, Rusiya, Hindistan və Orta Asiya ölkələri ilə iqtisadi əlaqələrin genişlənməsi gözlənilir. Zəngəzur dəhlizi və Orta dəhliz kimi layihələr də ŞƏT platformasında əlavə dəstək qazana bilər. Bununla yanaşı, Azərbaycanın Qərb və Avrasiya məkanında balanslaşdırılmış siyasəti güclənəcək. Bununla belə, nəzərə alsaq ki, Çinlə ABŞ və Avropa arasında münasibətlər getdikcə gərginləşir, qarşılıqlı ticarət məhdudiyyətlərinin tətbiqinə başlanıb, Rusiya və İran Qərbin ağır sanksiyaları altındadır, bu zaman Azərbaycanın ŞƏT-ə tamhüquqlu üzvlüyünün siyasi baxımdan ölkəmiz üçün müəyyən çətinliklər yarada biləcəyi ehtimalının yüksək olduğunu söyləyə bilərik. Doğrudur, hələlik ŞƏT əsasən iqtisadi əməkdaşlıq mütəvisi kimi daha çox tanınır. Lakin Qərblə münasibətlərin getdikcə gərginləşməsi fonunda siyasi müzakirələrin, qərarların alınması məsələlərinin gündəmə gəlməsi perspektivini istisna etmək mümkün deyil".

**Politoloq vurğuladı ki, Ermənistanın Azərbaycanın bu quruma üzv olmasını istəməsinin arxasında iqtisadi əlaqələri bərpa etmək, Azərbaycanın loqistik imkanlarından bəhrələnmək niyyəti dayanır:** "Azərbaycan və Ermənistan arasında hələ ki ticari-iqtisadi münasibətlər və ya buna dair imzalanmış sənədlər yoxdur. Sülh sazişi imzalanmayana qədər bunların olması da inandırıcı deyil. Amma hər iki ölkənin ŞƏT-də olması qəbul olunan ümumi qərarlar və razılaşmalar əsasında hansısa iqtisadi əlaqələri qurmağa və Azərbaycanın loqistik imkanlarından yararlanaraq ŞƏT ölkələri ilə əlaqələri inkişaf etdirməyə imkan verə bilər. Ermənistanla eyni təşkilatda yer alması isə gələcək dialoq üçün yeni imkanlar aça bilər. Digər səbəb isə Ermənistanın quruma Azərbaycan olmadan qəbulunun mümkünsüzlüyü ilə bağlı ola bilər. ŞƏT üzv ölkələrinin Azərbaycanı qəbul etmədən tək Ermənistanı quruma qəbul etmələri inandırıcı deyil. ŞƏT bu məsələlərdə ehtiyatlı davranmağa üstünlük verir. Məsələn, Hindistan və Pakistanın üzvlüyə qəbuluna dair qərar da eyni gündə 2017-ci ilin iyununda verilmişdi".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 153 (8763) 29 avqust 2024

# Rus əsgərinin ayağını Gümrüdən kim kəsəcək?

## Cənubi Qafqazın yalnız bir ölkəsində rəsmi olaraq Rusiyanın hərbi kontingenti qalıb; Azərbaycandan sonra Ermənistan da... - bir sorğunun müəmması

**“Azərbaycan torpağında bir nəfər də rus əsgəri yoxdur”. “Yeni Müsavat” qeyd edir ki, Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının “Əl-Ərəbiyyə” telekanalına müsahibəsində deyib.**

Jurnalistin “Siz Azərbaycanın etməyə çalışdığının qarşısını almaq üçün Rusiyanın hər hansı bir hərəkətə əl atacağından qorxmursunuz? Mən coğrafiyanı, dəhliz və sair məsələləri nəzərdə tuturam” sualına cavabında deyib: “Onların Ermənistanda hərbi bazası və bir neçə min nəfərdən ibarət hərbi heyəti var. Eyni zamanda Ermənistanın İran və Türkiyə ilə sərhədi Rusiya sərhədçiləri tərəfindən qorunur. Azərbaycan torpağında bir nəfər də rus əsgəri yoxdur. Beləliklə, Ermənistanda nə baş verə bilər, mən bunu bilmirəm. Lakin mən bu mənfi ssenari haqqında düşünmək istəmirəm”.

Bu arada İrəvanda “ARAR” Fondunun ictimai-siyasi məsələlərlə bağlı keçirdiyi sosioloji sorğunun nəticələri açıqlanıb. Sorğu Ermənistanın bütün ərazisindən təsadüfi seçilmiş abunəçilərin iştirakı ilə telefon müsahibəsi üsulunda aparılıb. Sorğunun nəticələri yaş, (ali və aşağı) təhsil və yaşayış yeri (İrəvan, şəhər və kənd yerləri) üzrə qruplaşdırılıb. Ümumilikdə respondentlərin əksəriyyəti, yəni 58 faizi parlamentin işindən narazıdır. Silahlı qüvvələr və kilsə ənənəvi olaraq yüksək reytinqə malikdir: 62 faiz Müdafiə Nazirliyinin, təxminən 60 faiz kilsənin, 49 faiz polisin işinə yüksək, 24 faiz isə aşağı qiymət verib. Hökumətdən razı olan respondentlərin sayı 28 faiz təşkil edib. 46 faiz isə hökumətdən narazıdır.

Maraqlıdır ki, İrəvana yaxın olan respondentlər hökumətin işindən daha çox narazılığını bildirib. Eyni yanaşma polisdən narazılığa da aiddir. Respondentlərin 60 faizi hökumətin daxili siyasətini yanlış və yalnız 33 faizi düzgün hesab edir, 3,6 faizi cavab verməkdə çətinlik çəkib və ya imtina edib. Respondentlərin 54 faizi hökumətin xarici siyasətini yanlış hesab edir, 38,5 faizi onu dəstəklədiyini bildirib. 7,1 faizi isə cavab verməkdə çətinlik çəkib. Artıq üçüncü ildir keçirilən sorğunun müəllifləri hesab edirlər ki, hər bir uğursuz müxalifət hərəkatı hakimiyyətə dəstəyin artmasına səbəb olur.

Üstəlik, yaşlı nəsil və maddi cəhətdən təmin olunmuş insanlar Azərbaycanla sülhə nikbin baxırlar. Həmçinin diqqətəlayiq haldır ki, respondentlərin yalnız 5 faizi maliyyə cəhətdən təminatlıdır və ardıcıl olaraq hökumətyönlü mövqe nümayiş etdirir. “Sünikdən keçən yolun beynəlxalq sülhməramlılar tərəfindən mühafizə olunması ilə razısınızmı?” sualına sorğuya qatılanların yalnız 34 faizi müsbət cavab verib. Respondentlərin 60 faizdən çoxu isə bununla razılaşmayıb.

“Azərbaycanla danışıqlar və sülh sənədinin imzalanması əsl sülhə gətirib çıxaracaqmı?” sualına gəlincə, respondentlərin 74 faizi buna inanmır, cəmi 25 faizi inanır. Eyni zamanda gənclərin 80 faizi buna inanmır. Əksəriyyət də kilsəni qorumaq üçün birləşməyə hazır olduqlarını deyib. Rusiya bazasının Ermənistan Respublikasından çıxarılması məsələsinə gəlincə, 58 faiz buna mənfi, yalnız 38 faiz müsbət cavab verib. “Ermənistan kiminlə müttəfiqlik əlaqələri qurmalıdır?” sualına 30 faiz Rusiya, daha sonra İran, ABŞ, Hindistan, təxminən 22 faiz isə Avropa İttifaqı ölkələrini qeyd edib.

Göründüyü kimi, ermənilərin 58 faizi rusların 102-ci hərbi bazasının getməsinin əleyhinədir. Heç 40 faiz də onun gedişini dəstəkləmir. Bu, nə dərəcədə real göstəricidir, söyləmək çətindir. Lakin hələ də erməni cəmiyyətində Rusiyaya yeganə müttəfiq kimi etimadın qaldığı görünür. Baxmayaraq ki, Ermənistan İkinci Qarabağ müharibəsində Rusiyadan açıq dəstək və Azərbaycana hərbi müdaxilə gözləyirdi.

Buna rəğmən, 102-ci baza ilə bağlı gözləntilər təəccüblüdür. Bəzi erməni təhlilçilər də belə hesab edir ki, Rusiyanın hərbi varlığına son qoymaq istəyi yalnız Paşinyan hakimiyyətindən gəlir. Yəni iqtidarın istəkləri ilə cəmiyyətin mövqeyi üst-üstə düşmür. Hətta son günlər Gümrüdə bazaya yaxın ərazidə “ruslar getsin” tələbi ilə keçirilən aksiyaların da hökumət tərəfindən təşkil olunduğu iddiaları səslənir. Bu sorğu isə ciddi bir ziddiyyəti üzə çıxarır və Rusiya hakimiyyətinin də “çörəyinə yağ çəkir”.

Bəs Ermənistandan rus çəkməsi nə zaman gedəcək? Paşinyan buna nail olacaqmı? Son sorğu Rusiyanın əlində əsas siyasi arqumentə çevrilə bilməzmi?

**Hərbi analitik Ramil Məmmədlinin “Yeni Müsavat”a bildirdiyinə görə, yekun sülh sənədi 102-ci hərbi bazanın varlığını əhəmiyyətsiz edə bilər:** “Bu hərbi kontingent Ermənistanın təhlükəsizliyinə qarantdır. Müqavilədə belə göstərilib. Bazada isə 4-5 min hərbçi var. Bəlkə də son günlərdə əsgərlərin sayı artırılıb. Amma bu qüvvə Ermənistanın təhlükəsizliyi üçün yetərsay deyil. Düzdür, sərhədlərində də rus hərbçiləri mövcuddur. Hətta bu reallıqda "Ermənistan Rusiyadır və nöqtə" söyləmək mümkündür. Çünki heç bir dövlətin ərazisində başqa ölkənin bu qədər hərbi kontingenti yoxdur. Paşinyan isə yeni təhlükəsizlik zəmanəti qazanmaq istəyir və bunu Qərbdən gözləyir. Avropadan bu qarantiya olmadıqca rus hərbi bazasını çıxara bilməyəcək. Əslində buna ehtiyac yoxdur. Əgər Azərbaycanla barışığ əldə olunubsa, sərhədlərində və Gümrüdə rus hərbçisi qalmamalıdır".

**Hərbi ekspertin fikrincə, sorğunun nəticələri şübhə doğura bilər, amma həm də erməni cəmiyyətinin çaşqın, qeyri-müəyyən vəziyyətdə olduğunu, seçim edə bilmədiyini gözlər önünə sərir:** “Qarabağ müharibəsindəki məğlubiyyət erməni xalqının psixologiyasına ciddi təsir edib. Onlar rus əsgərinin özlərinin yerinə döyüşəcəyini gözləyirdilər. Bu da olmadı və ağır travma yaşadılar. Sonrakı dövrdə Paşinyanın addımları cəmiyyəti ikiqat sarsıtdı və verilən qərarlar məğlubiyyətin davamı, "corabın sökülməsi" kimi qiymətləndirilməyə başlandı. Ermənilər hələ də sülh sazişinin paraflanmasını hökumətin güzəştə getməsi, yaxud kapitulyasiyası kimi başa düşürlər. Odur ki, seçim yoxdur və bilmirlər Rusiya, yoxsa Qərb tərəfə getsinlər. Bu da özünü Gümrüdəki hərbi bazanın qalıb-qalmaması sorğusunda göstərməkdədir. Sadəcə, bir reallıq var - tərəflər bazanın 2044-cü ilədək qalmasına qol çəkiblər, ortada müqavilə var. Paşinyan onun ləğvi üçün Putini razı salmalıdır. Buna müvəffəq olacağı isə sual doğurur".

Qeyd edək ki, Gümrüdəki hərbi baza Rusiya Müdafiə Nazirliyinin direktivi ilə 1 sentyabr 1994-cü il tarixində keçmiş SSRİ Silahlı Qüvvələrinin 7-ci ordusunun 127-ci motoatıcı diviziyasının ərazisində yaradılıb. İrəvan qarnizonuna İdarəetmə Qrupu, 123-cü motoatıcı alay, 3624-cü aviasiya bazası, hospital, mənzil-təchizat hissəsi, qarnizon məhkəməsi və rabitə mərkəzi daxildir. Gümrü qarnizonuna isə 128-ci motoatıcı alay, 124-cü motoatıcı alay, 988-ci zenit raket alayı (S-300 ZRK) və 992-ci artilleriya alayı tabedir. Bazanın nəzdində əlahiddə tank, kəşfiyyat, təmir, mühəndis-istehkam, radiasiya-kimyəvi və bakteroloji mühafizə taborları, tank əleyhinə divizion, radioelektron, tibb, komendant bölükləri, prokurorluq, televiziya mərkəzi və s. fəaliyyət göstərir.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**



## Rusiyanın dostlarına qarşı sanksiya hazırlığı

**Avropa İttifaqı ilk dəfə olaraq Rusiyanın tərəfdaşlarına qarşı qurumun xarici işlər nazirlərinin avqustun 29-30-da Kopenhagendə qeyri-rəsmi görüşdə müzakirə edəcəkləri 19-cu məhdudiyyətlər paketi çərçivəsində ikinci dərəcəli sanksiyalar tətbiq etməyə cəhd etmək niyyətindədir.**

Bu barədə “Bloomberg” məlumat yayıb.

Agentlik qeyd edib ki, bu ikinci dərəcəli sanksiyalar Rusiyanın məhdudiyyətləri aradan qaldırmaq tədbirlərinə qarşı yönələ bilər və Aİ-nin sanksiyalardan yan keçmək cəhdində şübhələndiyi üçüncü ölkələrə müəyyən mal və texnologiyaların tədarükünə qoyulan qadağalardan ibarət ola bilər.

Vurğulanıb ki, 19-cu məhdudiyyətlər paketi Brüsselin ukraynalı uşaqları oğurlamaqda ittiham etdiyi şəxslərin qara siyahısına daxil edilməsini nəzərdə tutur. Bundan əlavə, Rusiyanın neft, qaz və bank sektorlarına qarşı yeni tədbirlər gözlənilir.

## Moskvaya sülh üçün tələblər

**Vaşinqtonun Moskvaya qarşı hələ tam istifadə olunmayan rıçaqları var. ABŞ Prezidenti Donald Tramp bu rıçaqlardan istifadə edərək Vladimir Putini Ukraynadakı müharibəni dayandırmağa məcbur etməyə çalışır.**

“AzPolitika” xəbər verir ki, “Atlantic Council”in yazdığına görə, hazırda ABŞ-nin əsas vəzifəsi Qərbin danışıqlarda mövqeyini gücləndirmək və Ukraynada müharibəni dayandırmaq üçün daha çox təsir rıçaqları yaratmaqdır. Nəşrin analitiklərinin fikrincə, bunların arasında ən təsirlisi İrana qarşı olduğu kimi Rusiya neftinə qarşı da analoji sanksiyaların tətbiqidir. Bu, neft gəlirlərinin Moskvaya axınını demək olar, dərhal dayandıracaq. Nəticədə Rusiya Milli Rifah Fondunun tükənməsi ilə Putinin müharibəyə son qoymaq üçün danışıqlar aparmaqdan başqa yolu qalmayacaq.

Bundan əlavə, Rusiya neftinə ikinci dərəcəli sanksiyaların tətbiqi Hindistan, Çin və digər alıcıları ABŞ sanksiyalarına əməl etməyə məcbur edəcək. Əks halda, onların qlobal maliyyə sisteminə çıxışı itirmək riski yaranacaq. Gözlənilməz nəticələri azaltmaq üçün isə OPEC+ ölkələri hasilatı artıra və bazarda Rusiya neftinin itkisini kompensasiya edə bilər.

Sülh razılaşması və Ukrayna üçün təhlükəsizlik zəmanəti müqabilində Qərb liderləri məhdudiyyətlərin ləğvini təklif edə bilər ki, bu da Rusiya neftinin bazara qayıtmasına və Rusiya iqtisadiyyatını məhv olmaqdan xilas etməyə imkan verəcək.

Sülh sazişinə gəlincə, bu sənədə Moskvanın Ukrayna ərazisinə iddialarından əl çəkməsi, ukraynalı uşaqları və hərbi əsirləri geri qaytarması, sanksiyalara əməl edən Qərb şirkətlərinə qarşı məhkəmə iddialarından imtina etməsi, Ukrayna ərazilərinin bərpası üçün maliyyə öhdəliklərini qəbul etməsi və Avropa qüvvələrinin Ukraynaya yerləşdirilməsinə razılıq verməsi daxil edilmədir.

# Şagirddən telefonu alıb, planşet vermək təklifi

## "Samsung"u yaradan ölkə məktəbdə telefonu yasaqladı, Azərbaycanda isə...

**"Samsung" brendi altında bütün dünyaya telefonlar satan Cənubi Koreyanın parlamenti məktəblərdə dərs saatlarında mobil telefon və ağıllı cihazların istifadəsini qadağan edən qanun layihəsini qəbul edib. Xarici medianın yazdığına görə, səsvermədə iştirak edən 163 deputatdan 115-i qanun layihəsinin lehinə səs verib.**

Yeni qanuna əsasən, şagirdlər dərs saatlarında mobil telefon və ağıllı cihazlardan istifadə edə bilməyəcəklər. Lakin fiziki məhdudiyyəti və xüsusi təhsil ehtiyacı olan şagirdlər, eləcə də təcili hallarda istisna tətbiq olunacaq.

Deputatlar, valideynlər və müəllimlər "ağıllı" telefon istifadəsinin şagirdlərin akademik nailiyyətlərinə mənfi təsir etdiyini və dərsə ayıracaqları vaxtı azaltdığını bildirirlər.

Müxalifətdə olan "Xalqın Gücü" partiyasının millət vəkili Cho Jung-hun qanun layihəsini təqdim edərkən çıxışında belə deyib: "Şagirdlərin beyin inkişafı və emosional yetkinliyi üzərində ağıllı telefon asılılığının son dərəcə zərərli təsirləri ilə bağlı ciddi elmi və tibbi sübutlar mövcuddur".

Dünyada təhsili inkişaf etmiş ölkələrdə mobil telefonlardan istifadəyə yanaşma müxtəlifdir və vahid qayda mövcud deyil. Bəzi ölkələr bu məsələdə sərt qadağalar tətbiq edir, digərləri isə daha elastik yanaşır, hətta mobil telefonları tədris prosesinin bir hissəsinə çevirirlər. Məsələn, Fransada 2018-ci ildən etibarən orta məktəblərdə mobil telefonlardan istifadə qadağan olunub. Buradakı məqsəd həm şagirdlərin dərs zamanı diqqətinin yayındırılmasının, həm də kiberzorakılığın qarşısını almaqdır. Yunanıstan, İtaliya və Banqladeş kimi ölkələrdə də oxşar qadağalar tətbiq edilir.

Bəzi dövlətlər isə mobil telefonlardan istifadəyə qismən məhdudiyyət qoyur. İngiltərədə bir sıra məktəblərdə telefonlar yalnız dərs zamanı yığılır, fasilə vaxtı isə şagirdlərə qaytarılır. Hökumət son illərdə bu qadağaları daha sərt etmək istiqamətində müzakirələr aparır. ABŞ və Kanadada isə qaydalar ştatdan və məktəbdən asılı olaraq dəyişir. Ənənəvi olaraq dərs zamanı istifadəyə qadağa qoyulur, lakin valideynlərlə əlaqə və təcili hallarda telefondan istifadə imkanları qalır.

Bununla yanaşı, təhsildə qabaqcıl təcrübəyə malik olan Finlandiyada mobil telefonların tam qadağası yoxdur. Əksinə, müəllimlər lazım gəldikdə onları dərslərdə tədris vasitəsi kimi istifadə edirlər. Burada əsas şərt balansı qorumaq və şagirdlərin diqqətini yayındırmadan faydalı şəkildə istifadəyə şərait yaratmaqdır. Estoniya, İsveç və Norveç kimi ölkələrdə də telefonlar müəyyən məhdudiyyətlərlə dərs mühitinə daxil olur, amma daha çox planşetlər və məktəbin təqdim etdiyi xüsusi cihazlardan istifadə üstünlük təşkil edir.

Ümumi mənzərə göstərir ki, inkişaf etmiş ölkələrdə mobil telefonların tam qadağası nadir hallarda tətbiq olunur. Daha çox məhdudlaşdırılmış istifadə qaydaları seçilir. Məktəblər üçün əsas meyar telefonların tədris prosesinə mane olmaması, şagirdlərin təhlükəsiz internetdən istifadəsi və kiberzorakılığın qarşısının alınmasıdır.



Maraqlıdır ki, Azərbaycanda da orta məktəblərdə mobil telefonlardan istifadə ilə bağlı bir sıra qadağalar mövcuddur. Amma paradoks ondadır ki, müəllimlər məktəbdə mobil telefondan istifadəyə qadağa qoyduğu halda, ev tapşırıqları məhz mobil telefon vasitəsilə göndərilir. Tapşırıqların əksəriyyəti internet üzərindən həll olunur. Belə ziddiyyətli vəziyyətdə məktəblərin qadağaları istər-istəməz başqa məqamları da düşündürür. Xatırlayırsınızsa, ötən illərdə müəllimlərin biabırçı hərəkətləri şagirdlər tərəfindən videoya çəkilmişdi. Daha sonra bəzi hallarda şagirdlərin dərs zamanı, müəllimin gözü önündə nalayiq davranışları da böyük rezonansa səbəb olmuşdu. Məhz bundan sonra orta məktəblərdə baş verənləri ört-basdır etmək məqsədilə mobil telefon qadağaları daha da aktuallaşıb.

**Təhsil eksperti Fuad Hacıyev mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "Məktəblərdə bu tip qadağalar bəzən anlaşılan olur. Amma müasir dünyada, informasiya texnologiyalarının inkişaf etdiyi bir dövrdə internetsiz hər hansı bir dərs proqramını təsəvvür etmək absurddur. Niyə? Hazırda 1-ci sinfə gedən şagirdlərin kitab yükünü 10 valideyndən 8-i özü daşımaq məcburiyyətində qalır. Bu, ciddi problemdir. Deməli, qadağalar heç də hər zaman müsbət nəticə vermir. Yaxınlarda imtahan verən abituriyentlərin açıqlamalarını gördük. Bəziləri deyirdi ki, heç bir telefon istifadə etmədən 600-700 bal toplayıblar. Digərləri isə telefonlardan istifadə edərək yüksək nəticə əldə ediblər. Deməli, bu, hansısa kriteriya deyil. Belə qadağalar, sadəcə, dərs saatları ərzində planşetlərlə əvəzlənməlidir. Şagirdlər dərs proqramını yüklənə bilən planşetlər vasitəsilə öyrənməlidirlər. Bu zaman həm valideynlərin, həm də şagirdlərin işi xeyli asanlaşacaq". **Ekspert əlavə edib ki, uşaqların təhlükəsiz internetdən istifadəsi məsələsi də asanlıqla həll oluna bilər:** "Bütün mobil qurğularda "uşaq rejimi" adlı sistem var. Bu, həm valideynlər, həm də məktəb rəhbərliyi tərəfindən tətbiq edilə bilər. Məktəblər tərəfindən şagirdlərə planşetlərin (iPad və s.) paylanması Elm və Təhsil Nazirliyi üçün böyük bir yük olmayacaq. Nəzərə alsaq ki, nazirlik bəzən çox sadə tenderlərə böyük məbləğlər xərcləyir, həmin vəsaiti uşaqların faydasına yönləndirmək daha məntiqli olardı. Bu proqramlarda yalnız dərs yükünə aid, məktəb mühitinə ziyan vurmayan tətbiqlərin yazılması kifayətdir. Bu, heç bir qeyri-adi bacarıq tələb etmir. Nazirlik istəsə, bunu çox rahat şəkildə həyata keçirə bilər".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Məktəblərdə sıxlıq olacaq - bir sinifdə 40-45 nəfər

## "Təhsil haqqında" Qanunda açıq şəkildə göstərilir ki, bir sinifdə şagirdlərin sayı 20-30 nəfər arası olmalıdır

**Yeni tədris ili yaxınlaşdıqca ölkənin ümumi təhsil müəssisələrində ən çox müzakirə olunan məsələlərdən biri siniflərdə sıxlıq probleminin davam edib-etməyəcəyi ilə bağlıdır. Təəssüf ki, son illərin statistikası göstərir ki, bu problem yalnız davam etmir, hətta daha da dərinləşir.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023/2024-cü tədris ilində ümumi təhsil müəssisələrində 1 milyon 700 minə yaxın şagird təhsil alıb. Bu rəqəm son onillikdə ardıcıl şəkildə artıb. Lakin məktəblərin sayı eyni templə artmadığından, xüsusən Bakı, Sumqayıt və Abşeron kimi sıx məskunlaşmış ərazilərdə şagirdlərin bir sinifdə sayı 40-45 nəfərə qədər çatır.

Halbuki "Təhsil haqqında" Qanunun 24-cü maddəsində açıq şəkildə göstərilir ki, bir sinifdə şagirdlərin sayı 20-30 nəfər arasında olmalıdır.



Modern.az-a açıqlamasında **təhsil eksperti Kamran Əsədov** bildirib ki, bu qanun tələbinin icra olunmaması əslində dövlətin qəbul etdiyi normativ-hüquqi aktların kağız üzərində qalmasından başqa bir şey deyil. Onun sözlərinə görə, sıxlığın əsas səbəbləri, sadəcə, demoqrafik artım və ya böyük şəhərlərə miqrasiya ilə izah edilə bilməz. Bu, təhsil idarəçiliyində planlaşdırma və proqnozlaşdırma mexanizmlərinin olmamasının nəticəsidir.

"Elm və Təhsil Nazirliyi illərdir ki, yeni tikilən yaşayış massivlərinin təhsil infrastrukturuna təsirini nəzərə almır. Məsələn, son 10 ildə Abşeronda əhalinin sayı yüz minlərlə artdığı halda, həmin ərazidə məktəb şəbəkəsi eyni sürətlə genişlənməyib. Bunun nəticəsində valideynlər övladlarını ya həddindən artıq dolu siniflərdə oxutmalı olur, ya da əlavə ödənişlər edərək özəl məktəblərə yönəndirirlər. Bu, sosial ədalətsizlik yaradır".

**O eyni zamanda vurğulayıb ki, problemin ən ciddi nəticəsi tədrisin keyfiyyətinə vurulan zərbədir:** "Sinifdə 40-dan çox şagird olduğu halda, müəllimin hər birinə fərdi yanaşması qeyri-mümkündür. Nəticədə, dərslərin keyfiyyəti aşağı düşür, şagirdlər arasında öyrənmə bərabərsizliyi dərinləşir, psixoloji mühit gərginləşir. Bu isə sadəcə, bir təhsil məsələsi deyil, ölkənin gələcək insan kapitalının zəifləməsi deməkdir. Dünyanın inkişaf etmiş ölkələrində sinif sıxlığına xüsusi diqqət ayrılır. Məsələn, Finlandiyada ibtidai siniflərdə orta hesabla 20 şagird olur. Estoniyada bu rəqəm 18-22 nəfər arasındadır. Cənubi Koreyada belə sıxlığı azaltmaq üçün dövlət məktəblərinin paralel sinifləri açılır və yeni binalar tikilir. Bizdə isə hələ də ənənəvi "ikili növbəli dərs" sistemi tətbiq olunur ki, bu da keyfiyyətin ən böyük düşmənidir".

**K.Əsədov qeyd edib ki, məsələ yalnız tənqidlə bitmir, həll yolları da bəllidir:** "İlk növbədə məktəb tikintisinə ayrılan vəsaitlərin səmərəli istifadəsi təmin olunmalıdır. Hər il dövlət büdcəsindən milyonlarla manat ayrılır, lakin bu vəsaitlərin prioritet istiqamətlərə yönəldilməməsi səbəbindən problem qalmaqdadır. Eyni zamanda şagird bölgüsü mexanizmi dəyişdirilməlidir. Bir çox valideynlər "yaxşı məktəb" adı ilə müəyyən məktəblərə üz tutur, nəticədə həmin məktəblərdə sıxlıq yaranır, qonşu ərazilərdəki məktəblər isə boş qalır. Bu problemin həlli üçün elektron qeydiyyat və şagirdlərin yaxınlıq prinsipi əsasında bölgüsü tətbiq olunmalıdır".

**Son olaraq ekspert onu da əlavə edib ki, yeni tədris ilində də sıxlıq problemi davam edəcək:** "Çünki bu, sadəcə, texniki məsələ deyil, idarəetmədə boşluq və məsuliyyətsizlikdir. Təhsil haqqında qanunlar qəbul edilir, strateji sənədlər yazılır, amma icra olunmur. Nazirlik real maarifləndirmə işi aparmır, valideynlərə, müəllimlərə və ictimaiyyətə açıq proqnozlar təqdim etmir. Əgər biz bu problemi dünya təcrübəsinə uyğun həll etməsək, hər il eyni suali verəcəyik: məktəblər bu dəfə də sıx olacaqmı? Cavab isə dəyişməyəcək - bəli, olacaq".

YENİ MÜSAVAT
N 153 (8763) 29 avqust 2025

# Paşinyan 10 noyabr sənədini qüvvədən düşmüş elan etdi

## Ermənistanın baş diplomatı ilə baş naziri niyə fərqli dillərdə "danışırlar?"




**Ermənistan baş naziri Nikol Paşinyan Ermənistan, Rusiya və Azərbaycan liderlərinin 10 noyabr 2020-ci il üçtərəfli bəyanatının qüvvədən düşdüyünü bildirib.**

Paşinyan deyib ki, noyabrın 10-na qayıtmağa ehtiyac yoxdur: "10 noyabr 10 noyabrda qaldı".

"Ermənistan konstitusiyanın dəyişdirilməsi ilə bağlı Azərbaycan qarşısında heç bir öhdəlik götürməyib". Bunu isə Ermənistanın XİN rəhbəri Ararat Mirzoyan ictimai televiziyaya müsahibəsində bildirib.

"Konstitusiya Vaşinqtonda müzakirə olunmayıb və bizim konstitusiyamızı dəyişdirmək üçün heç bir üçüncü ölkə qarşısında heç bir öhdəliyimiz yoxdur", - o qeyd edib.

Bundan əvvəl Azərbaycan Qarabağla bağlı bəndin yer aldığı istiqlal bəyannaməsinə istinadın ölkə konstitusiyasından çıxarılmasından sonra Ermənistanla, nəhayət, sülh müqaviləsi imzalamağa hazır olduğunu bəyan etmişdi.

Azərbaycan rəsmiləri dəfələrlə qeyd ediblər ki, Ermənistanla sülh müqaviləsinin imzalanması yalnız Ermənistan Konstitusiyasına Azərbaycana qarşı ərazi iddialarını ehtiva edən müddəaları istisna edəcək düzəlişlər edildikdən sonra mümkündür.

Bu arada Mirzoyan digər açıqlaması ilə də təəccübləndirib. Xarici işlər naziri bildirib ki, Ermənistan ərazisindən keçəcək "Tramp marşrutu"nun 99 illik icarəsi ilə bağlı yayılan məlumatlar hələlik heç bir reallığa uyğun deyil. "Niyə hələlik deyirəm? Çünki bir daha qeyd etmək istəyirəm ki, razılaşmalar yalnız yazılıb dərc edilən sənədlərlə bağlıdır. Vaxt və texniki detallar hələ müzakirə olunmalıdır", - deyə o bildirib.

Nazir həmçinin qeyd edib ki, infrastrukturun keçəcəyi torpaq Ermənistan Respublikasına məxsus olacaq və ölkə bu marşrutun üzərində nəzarət və təhlükəsizliyi təmin edəcək. ABŞ və Ermənistan tikinti, idarəetmə və iqtisadi menecment üçün üçüncü tərəf tərəfdaş seçəcəklər.

**Ermənişünas alim, Türkiyənin Erciyes Universitetinin professoru Qafar Çaxmaqlı** "Yeni Müsavat"a bildirdi ki, Ermənistanın XİN rəhbəri Ararat Mirzoyanın İctimai TV-yə dedikləri baş nazir Paşinyanın mövqeyindən kəskin şəkildə fərqlənir: "Mirzoyanın öz ölkəsinin rəhbərinin dediklərindən xəbəri yoxdur? Paşinyan müqavilə bəndləri razılaşdırılandan sonra demişdi ki, Ermənistan müqavilənin imzalanması anında ATƏT-in Minsk Qrupundan imtina etməyə hazırdır. Əgər bu müqavilə Ermənistan Konstitusiyasında bəlli müddəalarla - Azərbaycana qarşı ərazi iddiaları ilə - ziddiyyət təşkil edərsə, Ermənistan uyğun şəkildə düzəlişə getməyi öhdəsinə alacaq. Bu, öhdəlik deyil, bəs nədir? Bu, Azərbaycanın tələbi qarşısında Ermənistanın üzərinə düşəni yerinə yetirəcəyini göstərən cəhətdir. Ermənistanın konstitusiya dəyişikliyinə 2027-ci ildə gedəcəyini nəzərə alsaq, müqavilənin də həmin tədbirdən sonra olacağını söyləmək olar. Amma gəlişmələr, xüsusən Vaşinqton razılaşması bu müqavilənin daha tez imzalanacağını göstərirdi. Ona görə də razılaşdırılmış 17 maddə paraflandı. İndi Ermənistan buna getmək istəmirsə, suç bizdə deyil". **Q.Çaxmaqlı zəruri xatırlatma etdi:** "Dəfələrlə demişik ki, Azərbaycan bu sənədin imzalanması üçün tələsmir. Ermənistan Vaşinqtonda əldə edilmiş razılaşmaları pozmaq istəyirsə, məsuliyyət də onun boynunda qalacaq. Ermənistanda Zəngəzur koridorunun açılması və Azərbaycanın əsas hissəsindən Naxçıvana maneəsiz keçidin verilməsi məsələsində də manipulyasiya edir. Ermənistanda bu məsələ məhz hakimiyyətin tapşırığı ilə hər gün müzakirə olunur və Ermənistanın ərazi bütövlüyü və qanunları ilə tənzimlənəcəyi fikri təlqin olunur. Bu məsələdə də Paşinyan siyasi manevr edir, guya bu koridor da Azərbaycanın istəyi ilə deyil, Ermənistanın etdiyi "sülh kəsişməsi" layihəsi ilə həyata keçirilməsi nəzərdə tutulub. Mirzoyanın dediyi "detallar müzakirə ediləcək" ifadəsi də manipulyasiya üçün yer qoymaq cəhdidir".

Ermənistan Vaşinqton razılaşmalarından boyun qaçıra bilərmi? **Q.Çaxmaqlı:** "Hər şey gözləmək olar. Bütün tarix boyu biz erməni ikiüzlülüyünün şahidi olmuşuq".

**Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru Sahib Məmmədovun fikrincə, Mirzoyanın dediyini "konstitusiya islahatı olmayacaq" fikri kimi qəbul etməməliyik:** "Əvvəlki şərhlərimizdə qeyd etdiyimiz kimi, hazırda Ermənistanda olan daxili qüvvələrlə xarici qüvvələr birləşib və Vaşinqton razılaşmasını bəhanə edərək Paşinyan hakimiyyətinə qarşı etirazları artırmağa çalışırlar və bu zaman əhalidə qıcıq yaratmaq üçün "Azərbaycan (yaxud Prezident İlham Əliyev) nə diktə edirsə, Paşinyan da onu icra edir" kimi fikir formalaşdırırlar. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, biz Ermənistanın daxili işlərinə qarışmırıq. Əslində paraflanmış sazişdə də bununla bağlı qarşılıqlı öhdəlik var. Ermənistan dövləti konstitusiyasında nə yazacaq, dövlət quruluşu, idarəetmə sistemi necə olacaq, özü bilər. Bizi maraqlandıran konstitusiyada Azərbaycana qarşı olan konkret ərazi iddiası çıxarılsın. Qalan məsələni özləri bilər. Saziş paraflanıb və səbirlə gözləyirik ki, bizə qarşı konstitusiya səviyyəsində ərazi iddiası aradan qaldırılsın".

S.Məmmədovun sözlərinə görə, Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına bu günlərdə verdiyi müsahibədə bir daha qeyd edib ki, "Formal olaraq sülh sazişinin imzalanmamasının bir xüsusi səbəbi var - Ermənistan Konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünü hələ də şübhə altına alan müddəa mövcuddur: "Bildiyimiz qədər, onlar həmin müddəaya dəyişiklik edəcəklər. Elə ki bu dəyişiklik edildi, yəni Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar onların konstitusiyasından çıxarıldı, formal olaraq sülh sazişi də imzalanacaq".

Əlbəttə, konstitusiya dəyişikliyi öz yerində, Ermənistanda separatçı qüvvələrin dəstəklənməsi, onlara Ermənistanda fəaliyyət üçün şəraitin yaradılması hazırkı sazişin müddəalarına ziddir və imzalanacaq sülh müqaviləsinə də zidd olacaq. Paraflanmış sənəddə birbaşa yazılmasa da, dolayısı ilə belə halların olmayacağına dair təminat da var. Əlbəttə, Ermənistanda "artsaxın mühacir hökumətinin" olması sülh müqaviləsinin şərtlərinin pozulması kimi qiymətləndiriləcək. Digər hallarda Ermənistanın siyasi sisteminin necə olması, müxalifət partiyalarının fəaliyyəti və s. bizim üçün maraqlı deyil. Ölkəmizə təhdid yaradan nə varsa, ona qarşı dözümsüz olmalıyıq və olacağıq da".

**Mirzoyanın "Konstitusiya Vaşinqtonda müzakirə olunmayıb" fikirlərinə gəlincə, siyasi şərhçi bunları söylədi:** "Bu, Vaşinqton görüşünə qədər müzakirə olunmuş məsələdir. Tramp və onun administrasiyası da bu barədə əvvəldən məlumatlı idi. Bizim bütün şərtlər Vaşinqton görüşünə qədər həll edilsəydi, o zaman saziş paraflamaq əvəzinə, bəlkə də elə birbaşa sülh müqaviləsini imzalayardıq. Sazişin imzalanmasında vasitəçi və şahid olan ABŞ Prezidenti bizim narahatlıqlarımızı tam anlayır. Ona görə də Ermənistanın sazişin şərtlərindən geri çəkilməsi Prezident İlham Əliyevin "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibədə qeyd etdiyi kimi olacaq. Həmin müsahibədə cənab Prezident qeyd edir ki, "Əgər orada hər hansı dəyişiklik baş verərsə və imzalanmış sənəddən geri addım atılarsa, bu, Ermənistanla ABŞ arasındakı münasibətləri ciddi şəkildə pisləşdirər. Bu, yalnız ABŞ-yə aid deyil, beynəlxalq ictimaiyyət, Avropa İttifaqı, Türkiyə və ərəb ölkələrindəki dostlarımız da bu prosesi dəstəklədilər".

**Politoloq Qabil Hüseynli "Yeni Musavat" açıqlamasında bildirib ki, 10 noyabr üçtərəfli bəyanatının yalnız 9-cu bəndi hələ də yerinə yetirilməyib. Bu bəndi Ermənistan yerinə yetirmədi:** "10 noyabr üçtərəfli bəyanatı tərəflərin üzərinə öhdəliklər qoyurdu. Azərbaycan üzərinə düşənləri zamanında yerinə yetirdi. Ermənistan da bəyanatın bir neçə bəndini yerinə yetirdi. Bəyanatın bəzi bəndlərini isə Azərbaycan güc yolu ilə həll etməyə məcbur oldu. 10 noyabr üçtərəfli bəyanatının 9-cu bəndi isə hələ də həyata keçməyib. Ermənistan beş ilə yaxındır ən müxtəlif bəhanələrlə bu bəndi yerinə yetirməkdən yayınıb. Erməni liderləri dəfələrlə deyiblər ki, nə Azərbaycan, nə də Türkiyə tərəfi Meğri vasitəsilə Ermənistanın yurisdiksiyasından kənarda olacaq dəhliz almayacaq, bəyanatda hazırda tərəflər arasında mübahisə predmetinə çevrilən nəqliyyat kommunikasiyalarının açılması üçün də konkret tarix nəzərdə tutulmayıb. Biz Zəngəzur dəhlizinin işə düşməsi üçün öz ərazimizdə həyata keçirməli olduğumuz işləri demək olar ki, reallaşdırmışıq. Ermənistan tərəfi öhdəliyini yerinə yetirmir. Bu ilin 8 avqustunda Vaşinqtonda Trampın da iştirakı ilə imzalanan razılaşmadan sonra Ermənistan baş nazirinin 10 noyabr üçtərəfli bəyanatının qüvvədən düşdüyünü bəyan eləməsi gözlənilən idi. Ermənistan hesab edir ki, bir müddət də 8 avqust üçtərəfli razılaşması üzərində spekulyasiyalar etməklə vaxt uzadacaqlar".

**E.PAŞASOY, "Yeni Müsavat"**

**Dağıstanda 5,3 maqnitudada zəlzələ olub, yeraltı təkanın ocağı 66 kilometr dərinlikdə yerləşib. Dağıstanda baş verən zəlzələ Azərbaycanın bir sıra şəhər və rayonlarında o cümlədən Quba, Qusar, Bakı və Sumqayıt şəhərlərində hiss olunub. Hər dəfə zəlzələ baş verən zaman ölkəmizdə olan binaların zəlzələyə davamlılığı aktuallaşır.**

# Paytaxtda binalar neçə bal zəlzələyə davamlıdır?

## Seysmoloq: "Sovet dövründən qalan həmin binalar 9 bala qədər hesablanaraq tikildiyi üçün davamlıdır"

Məsələ ilə bağlı İqtisadiyyat.az-a açıqlama verən **daşınmaz əmlak məsələləri üzrə ekspert Ramil Qasımzadə** bildirib ki, Azərbaycanda tikilən binalar zəlzələyə davamlıdır.

Onun sözlərinə görə, çünki binaların tikintisi prosesinə Fövqəladə Hallar Nazirliyi nəzarət edir: "Bu məsələ nəzarətdə saxlanılır. Fövqəladə Hallar Nazirliyinin müvafiq qurumları tərəfindən həm tikinti aparılarkən, həm istismara verilərkən qaydalara riayət edilməsi, betonun tərkibi xüsusi qaydada yoxlanılır və proses nəzarətdə saxlanılır".

**Ekspert deyib ki, bu baxımdan binaların zəlzələyə dözümlülüyü ilə bağlı narahat olmağa dəyməz:** "Binalar zəlzələyə tam davamlıdır. İndiyə qədər baş verən zəlzələlər də binaların dözümlülüyünü sübut edib. Binalar 8 bal gücündə zəlzələyə davam gətirə biləcək gücdədir. Tikinti prosesi zamanı bütün bunlar nəzərə alınır".



Qeyd edək ki, Azərbaycan yerləşdiyi coğrafi mövqeyə və geoloji quruluşuna görə seysmik cəhətdən aktiv ölkələrdən biri hesab olunur. Qafqaz dağ silsiləsinin davamı olan ərazilər, tektonik qırılma xətləri və geodinamik proseslər burada zəlzələlərin baş verməsinə şərait yaradır. Bu səbəbdən ölkənin müxtəlif hissələri fərqli səviyyədə seysmik risk daşıyır.

Azərbaycanın Aran düzənliyi və mərkəzi hissələri seysmik baxımdan ən sakit və təhlükəsiz zonalar sayılır. Bu bölgələrin geoloji strukturu və torpaq qatlarının möhkəmliyi burada dağıdıcı zəlzələlərin ehtimalını minimuma endirir.

Mütəxəssislər bildirir ki, təhlükəsiz hesab edilən zonalarda belə zəif təkanların baş verməsi mümkündür. Buna görə də tikinti normaları, şəhərsalma layihələri və mühəndis konstruksiyaları seysmik risklər nəzərə alınaraq planlaşdırılmalıdır.

Bəs həqiqətən ölkədə, xüsusən də paytaxtda binalar neçə bal zəlzələyə davamlıdır?

Mövzu ilə bağlı **seysmoloq Ənvər Əliyev** "Yeni Müsavat"a danışıb. Seysmoloq qeyd edib ki, binaların zəlzələyə davamlılığı birbaşa həmin ərazinin seysmik risk zonasına bağlıdır: "Azərbaycan ərazisi müxtəlif regionlara bölünüb və hər bölgənin seysmik göstəricisinə uyğun şəkildə tikinti aparılmalıdır.

Məsələn, Bakıda zəlzələ ehtimalı 6-7 ballıq hesab olunursa, burada binalar 8, hətta bəzi hallarda 9 ballıq seysmik davamlılıq əsasında tikilməlidir. Əslində paytaxtda güclü zəlzələ ehtimalı nisbətən azdır, bunu da şəhərdə yüz illərdir qalmaqda olan qədim abidələr təsdiqləyir. Azərbaycanın düzən sahələrində bu göstərici 4-5 bal arasında dəyişir. Orta zəlzələ ehtimalı daha çox Şamaxıdan Şəkiyə qədər olan ərazidədir. Burada ən güclü zəlzələ ehtimalı 9 baldır. Digər bölgələrdə, məsələn, Naxçıvanda da seysmik risk yüksəkdir - 7-8 bal arası hesablanır və bu da mütləq nəzərə alınmalıdır.

Qalır tikililərin necə yoxlanılması məsələsi, məlum olduğu kimi, buna nəzarəti Fövqəladə Hallar Nazirliyi həyata keçirir. Onlar tikintidə istifadə olunan betonun tərkibini, armaturun qalınlığını, diametrini, daşıyıcı tirlərin ölçüsünü və digər mühüm texniki parametrləri yoxlayırlar. Bu göstəricilər normalara uyğundursa, bina həmin bölgənin seysmik riskinə cavab verir. Əgər hər şey qaydasındadırsa və FHN diqqətlə nəzarət edirsə, böyük təhlükəli uçurumların yaranması ehtimalı az olur. Bakı kimi böyük şəhərdə əhalinin və tikililərin çoxluğu əlavə risk yaratsa da, hələ sovet dövründən qalan "Leninqrad tipli binalar" 7-8 bala, bəzən də 9 bala qədər hesablanaraq tikildiyi üçün müəyyən davamlılıq göstərir.

Hazırda ölkədə FHN-dən başqa bu binaları yoxlamaq və alternativ ekspertiza vermək səlahiyyətinə malik ayrıca bir qurum yoxdur. Bu səbəbdən də ümid yalnız FHN-in apardığı yoxlamalara qalır. Nazirlik isə bildirir ki, mövcud normalara əməl olunduğu halda vəziyyət qənaətbəxşdir".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**




## 500 Mbit/s internet sürəti vədi

**"Yaxın zamanda Azərbaycanda 500 Mbit/s və daha yüksək internet sürəti görə biləcəyik. "Onlayn Azərbaycan" layihəsi bitdi və ölkənin hər yerinə GPON texnologiyası tətbiq olundu. Bu müddətdə yaradılan və yenilənən infrastruktur layihələrinin nəticəsidir ki, biz hazırda 10G və 50G PON texnologiyalarından danışa bilirik".**

Bu barədə Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının İdarə Heyətinin sədri Elvin Abbasov öz Facebook səhifəsində yazıb. O qeyd edib ki, Azərbaycan internet sahəsində artıq həqiqi ultrasürət adlandırılan mərhələyə yaxınlaşır: ""Aztelekom" rəsmilərinin müsahibəsi qarşıma çıxdı. Müsahibəni oxuduqdan sonra deyə bilərəm ki, artıq həqiqi ultrasürət adlandırdığımız mərhələyə yaxınlaşırıq. Bəs 500 Mbit/s və daha yüksək internet sürəti istifadəçiyə nə verir? Bu sürət həm gündəlik, həm də peşəkar fəaliyyətlərdə çox böyük rahatlıq və performans vəd edir. İstifadəçilər böyük ölçülü faylları saniyələr içində yükləyə və paylaşa biləcəklər. Məsələn, 1 GB ölçüsündə video təxminən 16-17 saniyəyə yüklənir. Bu, xüsusilə "bulud" əsaslı platformalarda işləyənlər, dizaynerlər və videomontajla məşğul olanlar üçün böyük üstünlükdür. Bundan əlavə, yüksək sürət videozənglər zamanı səs və görüntü keyfiyyətini artırır, sənədlərin paylaşılmasını sürətləndirir və eyni zamanda bir neçə platformadan istifadə etməyə imkan verir. Bu, həm distant təhsil, həm də ev-ofis rejimində işləyənlər üçün idealdır. Bu saydıqlarım hələ üstünlüklərin bir qismidir. Belə səviyyədə internet sürəti yalnız bu günün deyil, yaxın gələcəyin də ehtiyaclarını qarşılayır. VR/AR texnologiyaları, yüksək interaktiv platformalar və inkişaf etmiş onlayn xidmətlər bu tip sürətli bağlantılarla daha effektiv olacaq".

# Bakıda partlayışa görə sakinlər köçürülür

## Müəyyən olunub ki, birinci girişin dörd və beşinci mərtəbələri tam qəzalı vəziyyətə düşüb

**Bakının Nizami rayonundakı Əli Vəliyev küçəsində partlayış nəticəsində qəzalı vəziyyətə düşən binada 15 mənzilin sakininə müvəqqəti kiraye pulu veriləcək.**

Bunu **Fövqəladə Hallar Nazirliyinin (FHN) Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəis müavini Elxan Əsədov** deyib.

Onun sözlərinə görə, Bakının Nizami rayonunda Əli Vəliyev küçəsində yerləşən binada ilkin ehtimala görə qaz sızması nəticəsində partlayış baş verib: "Hadisə beşmərtəbəli binanın sonuncu mərtəbəsində birotaqlı mənzildə baş verib. Ağır xəsarət alan və həyatını itirən olmayıb, lakin binanın birinci girişinin dörd və beşinci mərtəbələri qəzalı vəziyyətə düşüb. Orada xilasetmə işləri aparılıb, əhali təxliyə edilib, bina nəzarətə götürülərək bütün kommunikasiya xətləri kəsilib".



**E.Əsədov bildirib ki, hadisədən sonra tikinti mütəxəssisləri binaya baxış keçiriblər:** "Müəyyən olunub ki, birinci girişin dörd və beşinci mərtəbələri tam qəzalı vəziyyətə düşüb. Həmin mərtəbələr sökülüb yenidən bərpa ediləcək. Yaxın müddətdə hökumət bununla bağlı müvafiq qərar qəbul edəcək. Layihə, smeta sənədləri hazırlanacaq, binanın bərpa işlərinə başlanılacaq. Binanın bərpası müddətində birinci girişdə yaşayan 15 mənzilin sakinlərinin müvəqqəti yaşayışı üçün kirayə haqları ödəniləcək. Çalışacayıq ki, bu işləri qısa müddətdə başa çatdıraq və sakinləri öz evlərinə qaytaraq".

Xatırladaq ki, bu gün səhər saatlarında Əli Vəliyev küçəsində beşmərtəbəli yaşayış binasında mənzildə partlayış baş verib.

Əraziyə FHN-in Dövlət Yanğından Mühafizə və Xüsusi Riskli Xilasetmə xidmətlərinin qüvvələri cəlb olunub.

Beşmərtəbəli yaşayış binasının beşinci mərtəbəsində yerləşən birotaqlı mənzildə yanğınla müşayiət olunmayan partlayışın baş verdiyi və vətəndaşın müxtəlif dərəcəli bədən xəsarətləri alaraq köməksiz vəziyyətdə qaldığı müəyyən olunub. Vətəndaş Teymur Musa oğlu Muqamov xilas edilərək təcili tibbi yardım briqadasına təhvil verilib. Həmçinin təhlükəsizlik tədbirləri çərçivəsində qonşu mənzillərin sakinləri də təxliyə edilib.

YENİ MÜSAVAT
N 153 (8763) 29 avqust 2025

# Rusiya “Xəzərin xilası üçün pulum yoxdur” deyir

## Moskva Orta dəhlizin aktuallaşmasına əngəl törətmək istəyir?

**Xəzər dənizində ekoloji problemlərin əsas səbəblərindən biri iqlim dəyişikliyidir: yağıntıların miqdarı azalıb, buxarlanma sürəti artıb. 1979-cu ildən bəri Xəzər dənizinin səthinin orta temperaturu ildə təxminən 1 dərəcə selsi yüksəlib. Bundan əlavə, iqlim dəyişikliyi Xəzər dənizini qidalandıran çayların qollarının həcminin azalmasına təsir göstərib.**



Dənizi illik su ehtiyatı ilə təmin edən təxminən 130 çaydan əsas axın Xəzərin həcminin 80-90 faizini təşkil edən Volqadan gəlir. Qlobal iqlim dəyişikliyinin təsiri ilə Volqa qollarına daxil olan suyun həcmi azalır, yağıntıların az olması fonunda onlardan götürülən suyun miqdarı artır.

Lakin Xəzər dənizinin səviyyəsinin aşağı düşməsinin səbəbləri təkcə təbii amillərlə məhdudlaşmır. İnsan fəaliyyəti nəticəsində yaranan antropogen amillər suyun səviyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bunun bariz nümunəsi Xəzər çaylarından daxil olan suyun həcminin azalmasıdır. Belə ki, 1930-cu illərdə Sovet İttifaqında həyata keçirilən sənayeləşmə su anbarının vəziyyətinin formalaşmasında həlledici rol oynayıb. Su elektrik stansiyalarının fəaliyyətini təmin etmək üçün qol çaylarında çoxlu su anbarları tikilib. Məhz bu dövrdə Xəzər dənizinin səviyyəsi aşağı düşməyə başlayıb. 1950-ci illərdə Volqada bəndlərin tikilməsi ilə 1956-1969-cu illərdə Xəzər dənizinin həcmi hər il 25 kubkilometr azalıb. Hesablamalara görə, Xəzər çaylarından gələn suyun həcmi azalmasaydı, Xəzər dənizinin hazırkı səviyyəsi 1-1,5 m-dən çox olardı. Hazırda Volqada 8-ə yaxın bənd var ki, bu da suyun Xəzər dənizinə axmasına əhəmiyyətli dərəcədə mane olur. Ümumilikdə, Volqa hövzəsində ümumi faydalı həcmi 101 kubkilometr və səth sahəsi 30,4 min kvadratkilometr olan 800-ə yaxın su anbarı var ki, onlar orta illik axının demək olar ki, 70 faizini toplayır.

Rusiya Transxəzər dəhlizlərinin inkişafı üçün vacib olan layihəni - Volqa-Xəzər kanalının dərinləşdirilməsini davam etdirməkdən imtina edib.

İnbusiness.kz xəbər verir ki, Rusiya hökuməti tərəfdaşlar qarşısında Volqa-Xəzər Dəniz Gəmiçiliyi Kanalını (VCSSC) 4,2 metrdən 4,5 metrə qədər dərinləşdirmək öhdəliyi götürüb. Lakin indi layihəni dayandırmaq qərarına gəlib.

Rusiyanın fikri nədir? Bəlkə dibdərinləşdirmə prosesini dayandırır ki, Rusiyadan keçən Transxəzər daşımalarını əngəlləsin? Amma bununla Rusiya öz iqtisadiyyatına da ziyan vurur. Bəlkə səbəb maliyyə çatışmazlığıdır?

Baki-xeber.com-a görə, irəli sürülən ehtimallar - Rusiyanın dibdərinləşdirilməni dayandırmasının transxəzər daşımalara manea yaratmaq məqsədi daşıması, bu qərarın iqtisadi motivlərlə bağlı olması və ya maliyyə çatışmazlığından qaynaqlanması inbusiness.kz-nin məqaləsində təsvir olunmuş faktlara əsasən tamamilə əsaslı görünür.

Nə baş verir? Rusiyanın hökuməti 4,2-4,5 m-lik gəmilərin keçməsi üçün Volqa-Xəzər dənizçilik kanalının əsaslı dərinləşdirilməsi layihəsini 2025-ci ildə maliyyələşdirməkdən vaz keçib. Bu qərar 31 iyul 2025-ci il tarixində baş nazirin müavini V.Savelyev tərəfindən Putinə ünvanlanan məktubda təsdiq olunub.

“Rosmorport” kanal dərinləşdirmə işləri üçün 2023-cü ildə 4,08 mrd rubldan yalnız 2,08 mrd rublu dövlət büdcəsindən, qalanını isə öz vəsaiti hesabına ayıra bilib. 2024-cü ildə isə yalnız 3,51 mrd rubldan ibarət vəsaitlə işləyib, amma bu tam maliyyə təminatı deyildi.

Bu səbəbdən 2025-ci il üçün tələb olunan ən azı 3,53 mrd rublluq maliyyələşdirmə mümkün olmayıb. “Rosmorport”un çətin maliyyə vəziyyəti buna imkan verməyib.

Nəticə olaraq, 4,2-4,5 m dizayn tıxacına malik gəmilər bu hissədən keçə bilmirlər və yalnız orta ölçülü gəmilər və ya qismən yüklənmiş gəmilər istifadə olunur. Məsələn, 2024-cü ildə Astara-Həştərxan və Olya limanlarına yalnız iki gəmi yan ala bilib.

“Bəlkə Rusiyanın fikri Transxəzər daşımalara mane olmaqdır” mülahizəsi müəyyən qədər artıq reallaşıb. Kanalın dərinləşdirilməməsi Transxəzər, yeni Rusiya ərazisini keçməyən orta və ya tam yük gəmilərinin istifadəsinə məhdudiyyət yaradır. Ancaq bu, Rusiyanın birbaşa siyasəti deyil - daha çox lazımi vəsaitin təmin edilməməsindən qaynaqlanır. ABŞ və Avropa bazarına çıxışını diversifikasiya etməyə çalışan digər Xəzəryanı ölkələr üçün bu, özündə dolayı əngəl təşkil edir.

Amma bu, eyni zamanda Rusiyanın öz iqtisadiyyatına da ciddi ziyan verir. Dərinləşdirilmənin ləngiməsi yük tutumunu 70-80%-ə qədər azaldır. Bu da daşımaların maya dəyərini artırır və tranzit gəlirlərini azaldır. Bununla belə, Rusiyanın iqtisadiyyatı bu durumdan ziyan çəkir. Nəinki regional tranzitdə, həm də logistika verimliliyində zərərlər ortadadır.

Əsas səbəbin maliyyə çatışmazlığı olduğu tam dəqiqdir. “Rosmorport”un maliyyə durumu 2025-ci il üçün kifayət qədər investisiya təmin etməyə imkan vermədi. Hökumət bu layihəni iqtisadi cəhətdən “tələb olunmayan” və “səmərəsiz” hesab edərək maliyyəni kəsdi. Bu isə kanalın dərinləşdirilməsini qeyri-mümkün etdi.

Nəticə olaraq qeyd edək ki, Rusiyanın dərinləşdirmə prosesini dayandırmasının əsas səbəbi maliyyə çatışmazlığıdır, yeni “Rosmorport”un maliyyə vəziyyəti bu investisiyanı sürdürməyə imkan verməyib.

Bu, xüsusi bir geosiyasi plan kimi görünmür, daha çox iqtisadi reallıq və büdcə prioritetlərinin nəticəsidir.

Ola bilərmi Moskva bununla Rusiyadan yan keçən Orta dəhlizin aktuallaşmasına əngəl törətmək istəyir?

Əgər kanal normal rejimdə dərinləşdirilsəydi, böyük gəmilər rahat keçərdi və Xəzərin Rusiyaya məxsus şimal limanları (Olya, Həştərxan) Orta dəhlizə də qoşula bilərdi. İndi isə həmin kanalda məhdud tutumlu gəmilər istifadə olunur. Bu da daşınma xərclərini artırır və yük axınının bir hissəsini məcburən Azərbaycan-Qazaxıstan bərə xətlərinə yönəldir. Yeni faktiki olaraq, Rusiyanın addımı Orta dəhlizi zəiflətmir, əksinə, onun aktuallığını daha da artırır. Çünki yüklər Rusiya marşrutundan yan keçərək daha sabit və proqnozlaşdırılan xətlərə yönəlir.

Rusiya görəvliləri rəsmi olaraq deyirlər ki, səbəb maliyyə çatışmazlığıdır. Həqiqətən də “Rosmorport”un büdcəsi çatmır. Amma geosiyasi baxımdan bu qərar Moskvanın işinə də yaraya bilər. Rusiya Orta dəhlizdə həddən artıq sürətli irəliləyişin qarşısını almağa çalışır, amma bunu açıq şəkildə deyil, maliyyə və ekoloji bəhanələrlə edir.

Yəni bu, həm maliyyə reallığıdır, həm də dolayı geosiyasi “əlverişli təsadüf” ola bilər...

❑ **“Yeni Müsavat”**



## Azərbaycanda kürü istehsalı son 5 ildə 13 dəfə artıb

**2024-cü ildə Azərbaycanda 1,3 ton nərə kürüsü istehsal edilib.**

525.az-ın Dövlət Statistika Komitəsinin məlumatları əsasında apardığı hesablamalara əsasən, bu, 2023-cü ilə nisbətən 0,5 ton və ya 63%, 2020-ci ilin göstəricisi ilə müqayisədə isə 1,2 ton və ya 13 dəfə çoxdur.

Hesabat dövründə Azərbaycanda 6,7 min ton balıq məhsulları (konservlər daxil olmaqla) istehsal edilib ki, bu da 1 il əvvələ nisbətən 4,2 ton və ya 2,7 dəfə, 5 il əvvəlki göstərici ilə müqayisədə isə 5 ton və ya 4 dəfə çoxdur.



## Qaraçay üzərində yeni körpü inşa olunur

**Quba-Qonaqkənd-Muçu avtomobil yolunun 7-ci kilometrində, Qaraçay çayı üzərində yerləşən, qəzalı vəziyyətə düşmüş 101 metr uzunluğa malik mövcud körpüyə alternativ olaraq yeni avtomobil körpüsünün inşası aparılır.**

Yeni körpü 100 metr uzunluğunda, 12 metr enində və 3 aşırımlı olmaqla inşa olunur. Hazırda layihə üzrə körpü tirlərinin quraşdırılması, betonlama işləri, çay yatağında istinad divarı və mühafizə bəndinin tikintisi davam etdirilir.

Xatırladaq ki, sel suları nəticəsində mövcud körpünün 4 nömrəli dayağında şaquli oxdan çıxaraq əyilmə müşahidə olunmuşdu.

## 7 ayda nə qədər sığorta yığılıb?

**Bu ilin yanvar-iyul aylarında Azərbaycandakı sığorta şirkətlərinin xətti ilə 937,7 milyon manat sığorta haqqı toplanılıb.**

Azərbaycan Mərkəzi Bankı xəbər verir ki, bu, ötən ilin eyni dövrünə nisbətən 12,5 faiz çoxdur.

Hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 529,3 milyon manat təşkil edib ki, bu da illik müqayisədə 20,7 faiz artıqdır.

Yeddi ayda sığorta şirkətləri tərəfindən avtonəqliyyat vasitələrinin könüllü sığortası üzrə 40,4 milyon manat sığorta haqları, 17,5 milyon manat sığorta ödənişləri təşkil edib.

YENİ MÜSAVAT
N 153 (8763) 29 avqust 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

# Zəhərli hava bizi belə öldürür...

## Havanın çirklənməsi sağlamlığımızın düşməninə çevrilib: necə xilas olmalı?

**Günlərdir Bakıda və Abşeron yarımadasında tozlu hava şəraiti müşahidə olunur. Bunu Ətraf Mühitin Çirklənməsinin Monitorinq Qrupunun baş mühəndisi Rəna Allahverdiyeva bildirib. O qeyd edib ki, hazırda havada tozun miqdarı normadan 1.5 dəfə artıqdır. R.Allahverdiyeva əlavə edib ki, müşahidə olunan toz meteoroloji şəraitlə əlaqədar transsərhəd xarakterlidir, cənub-şərq istiqamətli hava axınları vasitəsilə ölkə ərazisinə daxil olub: “Tozlu hava şəraitinin meteoroloji vəziyyətdən asılı olaraq gün ərzində davam edəcəyi gözlənilir”.**



Bəs niyə udduğumuz hava bu qədər çirklidir? Problem nədədir? Təkcə yaşadığımız coğrafiya buna səbəbdir, yoxsa başqa məqamlar da təsir göstərir?

Meşə yanğınları, sənaye və nəqliyyat atmosferin əsas çirklənmə səbəbləridir. ÜST-nin dəyərləndirmələrinə görə, havanın çirkli olması hər il 7 milyon insanın həyatına son qoyur. ÜST son 15 ildə bunun daha da aktuallaşdığını qeyd edib. Havanın keyfiyyətinin az olmasından ən çox əziyyət çəkənlər zəif iqtisadiyyatlı ölkələrdir. 30 ən çirkli atmosfer olan şəhərlərdən 22-si Hindistandadır.

Mütəxəssislər deyirlər ki, əsasən Bakıdan min kilometrlərlə uzaqda yerləşən Ərəbistan və Mesopotamiya çöllərindən, İranın quru ərazilərindən, Türkmənistanın sahil düzənliklərindən göyə qalxan toz küləklərin təsiri ilə ölkəmizin yerləşdiyi coğrafiyaya istiqamət alır. Güclü küləklər onları Xəzərin üzərindən qaldırıb Abşeronun üzərinə səpələyir. Nəticədə bulanıq səma, ağır nəfəs və səssiz sağlamlıq böhranı yaşanır. Mütəxəssislər qeyd edirlər ki, tozun miqdarı normadan artıq olanda əsasən uşaqlarda sağlamlıq problemləri yarada bilər. Çünki onların ağciyərləri hələ tam inkişaf etməyib. Yaşlılar orqanizmi zəif olduğundan onlar da tozlu hava ilə sınağa tab gətirmirlər. Astmatiklər və ürək xəstələri üçün də hər zərrə tozlu hava əlavə yükdür. Hamilə qadınlar da risk qrupundadırlar. Nəfəsdəki çirklənmə dölün inkişafına mənfi təsir edir. Həkimlər xəbərdarlıq edir ki, tozlu günlərdə astma və bronxit kəskinləşir, ürək-damar xəstəliklərinin riski artır, gözlərdə qızartı və sulanma yaranır. Uzunmüddətli təsirləri isə daha təhlükəlidir. Bir çoxumuz üçün bu toz dumanı sadəcə “hava bulanıqlığı” təsiri bağışlasa da, əslində bu, səssiz fəlakətdir. Ümumdünya Səhiyyə Təşkilatının araşdırmaları göstərir ki, hər il milyonlarla insan məhz toz və çirkli hava səbəbindən həyatını itirir.

Vəziyyətdən çıxış yolu kimi maska taxmaq, evlərin pəncərələrini bağlı saxlamaq, imkan daxilində açıq havada az qalmaq tövsiyə olunur. Çünki bu fəlakət nə sərhəd tanıyır, nə də xəbərdarlıq edir. Bakının səmalarını bürüyən bu boz toz dumanı əslində ağır fəsadlar yaradır.

Bu il havanın ən çox çirklənməsi Lökbatanda qeydə alınıb. Bu, daha öncə mediada yayılan hesabatlarda da öz əksini tapıb. Bu, nəqliyyat hərəkətinin həmin ərazidə çox olması ilə əlaqəlidir. Hava çirklənmələri fəsildən fəslə dəyişir. Ən çox çirklənmə göstəricisi isti dövrdə müşahidə olunur.

Yuxarıda da qeyd etdik ki, təhlükənin miqyası böyükdür. Amma Azərbaycanda bu, yalnız dövlət qurumlarının maarifləndirmə və xəbərdarlıq xarakterli müraciətləri ilə kifayətlənir. Beynəlxalq təcrübədə isə fərqli yanaşma var. Məsələn, ABŞ, Avropa ölkələri və Çin kimi ölkələrdə hava çirklənməsi ilə bağlı “air quality alert” sistemləri işləyir. İnsanlar SMS, TV, radio və mobil tətbiqlər vasitəsilə tozlu və çirkli hava barədə xəbərdar edilir, hansı tədbirləri görəcəkləri ətraflı izah olunur. Dövlət qurumlarının əhaliyə çağırış etməsi təkcə tövsiyə deyil, sağlamlıq və həyatın qorunması baxımından zəruridir. Toz minlərlə insanın sağlamlığını zədələyə bilər. Dünyada havanın keyfiyyətini ölçən İsveçrənin İQAir şirkəti qeyd edir ki, hər il 7 milyon insan havanın çirklənməsindən ölür, milyardlarla insan isə pis havanın təsirindən əziyyət çəkir. İQAir-in yayımladığı hesabatdan aydın olur ki, hazırda Bakı keyfiyyətsiz hava reytinqində 10 ölkə arasında 153 balla 3-cü yerdədir. İlk yerdə Konqo, təqibçisi isə İndoneziyadır. İnteraktiv xəritədə də çirkli hava axınlarının Bakıya istiqamətlənməsini də izləmək olur. Təqdim olunan xəritələrdən və məlumatlardan belə aydın olur ki, hazırda Bakıda havanın çirklənməsi səviyyəsi fəlakət həddindədir.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, hava çirkliliyi hər il dünyada 7 milyon insanın ölümünə səbəb olur. Beynəlxalq hesabatlara görə, Azərbaycanda ən çirkli ərazi Abşeron yarımadasıdır. Ən çirkli 3 bölgə isə Bakı, Sumqayıt və Gəncə şəhərləri hesab olunur.

Son illər ölkəmizdə istehsal olunan və yanacaqdoldurma məntəqələrində istehlakçılara satılan avtomobil yanacağının kəmiyyət və keyfiyyət göstəriciləri normativə uyğun deyil və bu, havanın çirklənməsində əsas rol oynayır. Dünyada baş verən müharibələr, müntamadi həyata keçirilən hərbi təlimlər, uzunmənzilli raket sınaqlar atmosferin uzun müddət çirklənməsinə səbəb olan əsas amillərdir. Həmçinin 44 günlük müharibə zamanı Ermənistan ordusunun mülki vətəndaşlarımıza qarşı qadağan olunmuş kimyəvi və fosfor tərkibli raketlərdən istifadə etməsi ölkəmizin atmosferinə böyük təsir edib. Buna görə də ölkəmizdə çirklənmənin fəsadları cidd şəkildə özünü büruzə verməkdədir.

Son 20 ildə dünya atmosferində 50 faizdən çox çirklənmə qeydə alınıb. Biz norma olaraq 16 faiz oksigen qəbul etməliyik, amma karbon-dioksid, azot-1 oksid kimi kimyəvi tullantıların miqdarı qədər çoxalıb ki, oksigenlə bərabər bədənimizə daxil olur və orqanizmdəki özünü tənzimləmə mexanizmlərini pozur. Bu da bədəndə xroniki yorğunluq sindromunun kütləvi xarakter almasına səbəb olur.

Eyni zamanda yuxarı tənəffüs yollarının selikli qişasının ciddi zədələnməsi, onlarda allergiya proseslərinin artması, selikli qişada geriyə dönməz və yuxarı tənəffüs yollarında, alt və əsas terminal bronxlara qədər gedən yollarda ciddi zədələnmələr baş verir.

Son illər havanın kəskin çirklənməsi Azərbaycan əhalisi arasında bəzi xroniki, həmçinin şəkər diabetli xəstəliklərin artmasına səbəb olub. Çirkli hava şəkərli xəstələrdə şəkərin giper-klinik formasının aşağı düşməsinə imkan vermir. Orqanizm reseptorları zəhərli hava qazları ilə o qədər zəbt olunur ki, təyin olunan dərmanları qəbul edə bilmir və şəkər xəstələri ciddi əziyyət çəkir. Digər xroniki xəstəlikləri olan şəxslər də eyni prosesdən əziyyət çəkirlər.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI**

# Kreditlə alınan əşyalar problemə çevrilir

## Ekspert: “Bank vətəndaşa demir ki, kredit götür, özünə “Ayfon", paltaryuyan al..."

**Azərbaycanda problemli kreditlərin həcmi durmadan artır. 2025-ci ilin iyun ayının sonunda ölkədə vaxtı keçmiş kreditlərin həcmi 527,4 milyon manat civarında olub.**



Azərbaycan Mərkəzi Bankının açıqlamasına görə, həmin rəqəm 2024-cü ilin eyni dövrü ilə müqayisədə 75,7 milyon manat (16,8 faiz), cari ilin may ayının sonu ilə müqayisədə isə 19,1 milyon manat (3,8 faiz) çoxdur. Belə ki, ötən ilin sonunda Azərbaycanda vaxtı keçmiş kreditlərin məbləği 451,7 milyon manat, 2025-ci ilin mayın sonunda isə 508,3 milyon manat həcmində olub.

Modern.az-a açıqlamasında iqtisadçı-ekspert Eldəniz Əmirov bildirib ki, kredit portfelinin həcminin durmadan artması, ümumilikdə müsbət hal kimi qiymətləndirilə bilər, lakin istehlak kreditlərinin sayının artması müəyyən mənfi təsirlər yaradır.

“Kreditlər müxtəlif kateqoriyalara bölünür və onlardan biri də istehlak kreditləridir. Bu kontekstdə mən düşünürəm ki, məsuliyyət yalnız bankların deyil, daha çox vətəndaşların üzərinə düşür. Çünki heç bir bank vətəndaşı məcbur etmir ki, yüksək faizlə kredit götürsün. Məsələn, bank heç vaxt vətəndaşa demir ki, "gəl kredit götür, özünə “Ayfon”, paltaryuyan, robot tozsoran və ya qızın üçün ən bahalı mebeli al". Buna vətəndaş özü qərar verir və övladına ən yaxşısını təmin etmək istəyir. Təbii ki, bu da vətəndaşın haqqıdır".

**Ekspert onu da əlavə edib ki, nəticədə həmin kreditləri qaytara bilməyəndə onların kimisə günahlandırması düzgün deyil:** “Kredit üçün müraciət edən şəxs bu məsuliyyəti əvvəlcədən dərk etməlidir”.

**E.Əmirov həmçinin vurğulayıb ki, bu məsələdə bankların da üzərinə bir sıra vəzifələr düşür:** “Artıq bu istiqamətdə Mərkəzi Bank tərəfindən müəyyən addımlar atılır. Zənnimcə, istehlak kreditlərinin verilməsi ilə bağlı şərtlərin bir qədər sərtləşdirilməsinə ehtiyac var. Çünki bəzən ödəmə qabiliyyəti olmayan şəxslərə də kredit verilir. Bu isə olduqca təhlükəli tendensiyadır. Ona görə də həm banklar, həm də vətəndaşlar bu məsələyə daha ciddi və məsuliyyətli yanaşmalıdırlar”, - deyə o bildirib.

YENİ MÜSAVAT
N 153 (8763) 29 avqust 2025

# Payız gəlməmiş ət bahalaşdı

## Azərbaycanda daxili bazarın mal və quzu əti ilə təminatında idxalın payı getdikcə artır

**Bakıda mal və quzu ətinin qiymətində yeni artım müşahidə olunur. Müşahidələr göstərir ki, hər iki ət növündə 1 kiloqramda 1 manat artım baş verib. Hazırda mal əti qiyməti 16-20 (sümüklü və sümüksüz fərqi ilə), quzu əti isə 20-23 manat arasında dəyişir. Ət satışı ilə məşğul olan sahibkarlar qiymət artımını iribuynuzlu heyvanların sayının azalması ilə əlaqələndirirlər. Onların sözlərinə görə, əvvəllər 16,50 manata satdıqları mal ətini indi eyni qiymətə - 16,50 manata özləri almalı olurlar. Sahibkarlar bildiriblər ki, mal-qara saxlayanların sayının azalması bazarda təklifin azalmasına və nəticədə qiymətlərin artmasına səbəb olub.**

Dövlət Statistika Komitəsinin hesablamalarına əsasən 2025-ci il iyulun 1-i vəziyyətinə Azərbaycanda 1 milyon 220 231 baş inək və camış olub. Bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 1,6 faiz azalma deməkdir. Qoyun-keçi sayı qeyd olunan dövrdə illik müqayisədə 3,4 faiz azalaraq 6 milyon 886 535 başa düşüb.

Nə qədər paradoksal olsa da, baş sayının azalması ət-süd istehsalında artımla müşayiət olunub. Belə ki, rəsmi statistikaya əsasən 2025-ci ilin yanvar-iyul aylarında quş əti də daxil olmaqla diri çəkidə 335,3 min ton ət, 1315,5 min ton süd istehsalı qeydə alınıb, bu, əvvəlki ilin eyni dövründəkindən müvafiq olaraq 1,2 faiz və 0,3 faiz çoxdur.

Qeyd edək ki, son bir ildə bütün dünyada mal və qoyun əti qiymətlərində artım müşahidə olunur. BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) hesablamalarına əsasən iyulda qlobal Ət Qiymətləri İndeksi orta hesabla 127,3 bənd təşkil edərək yeni rekord həddə çatıb. Bu göstərici iyun ayı ilə müqayisədə 1,5 bənd (1,2 faiz) və 2024-cü ilin iyul ayındakı dəyərindən 7,3 bənd (6,0 faiz) yuxarıdır. FAO-nun izahına görə, bahalaşma əsasən iribuynuzlu heyvanların və qoyun ətinin bahalaşması, eləcə də quş əti ətinin qiymətlərində cüzi artımla bağlı olub. Bu mənada Azərbaycanda qiymət artımının qlobal bazardan qaynaqlanan psixoloji səbəbi istisna olunmamalıdır.

Bir qayda olaraq bazara çıxarılan məhsulların qiymətinə onların istehsalına çəkilən xərclər birbaşa təsir göstərir. Söhbət istehsalçı qiymət indeksindən gedir ki, Azərbaycanda bu sahədə analoqu olmayan proses qeydə alınmaqdadır. Məlumdur ki, istehsalçı qiymət indeksləri bir qayda olaraq 1-2 aydan sonra hazır məhsulda öz əksini tapır. Azərbaycanda rəsmi statistika kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksinin may ayından bəri aylıq ifadədə azaldığını əks etdirir: məsələn, may ayında aprel ayı ilə müqayisədə bu göstərici 0,2 faiz, iyulda iyuna nəzərən 0,9 faiz. Lakin maraqlıdır ki, aylıq ifadədə qeydə alınan bu azalmanı biz heyvandarlıq məhsullarında, o cümlədən ət qiymətlərində tamamilə əks formada müşahidə edirik: demək olar ki, hər ay 0,5-1 manat qiymət artımı baş verir.

İllik ifadədə iyulda kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksinin 10,2 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 10,3 faiz artdığı bildirilir. Yeri gəlmişkən, Azərbaycan Mərkəzi Bankının hesablamalarına əsasən kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksinin artımı ölkə üzrə ümumi inflyasiya səviyyəsinə təsir göstərən ikinci əsas amildir. Bu göstərici bu ilin sonunadək ölkə üzrə inflyasiyaya 3,20 faizə qədər artırıcı təsir göstərəcək.

Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksinin artmasına isə yanacaq, enerji və qaz qiymətlərindəki artım, heyvandarlıq sahəsində həm də yem bazasının bahalaşması gətirib çıxarır.

Azərbaycanda daxili bazarın mal və quzu əti ilə təminatında idxalın payı getdikcə artır: ölkə üzrə fərdi təsərrüfatlarda heyvan sayının sürətlə azalması fonunda cins ətlik heyvandarlığı ilə məşğul olan böyük təsərrüfatların yaradılması prosesi çox ləng gedir. Nəticədə kiçik yaşlı mal və quzular xaricdən - əsasən Rusiya və Gürcüstandan gətirilərək, qısa müddətdə kökəldilir və kəsimə yönəldilir. Hesablama Palatasının apardığı araşdırmaya görə, 2019-2023-cü illəri əhatə edən məlumatlara əsasən 5 illik dövr ərzində iribuynuzlu və xırdabuynuzlu heyvanların diri halda idxalı 68,4 faiz artıb, ət halında idxalı müəyyən intervallarda olmaqla kəskin fərqlənməyib, ölkə əhalisinin sayının 200 min nəfərdən çox artımı şəraitində mal, qoyun, keçi ətinin və ət məhsullarının adambaşına düşən illik istehlakı sabit qalıb, ölkədə iri və xırda buynuzlu heyvanların sayının 11,7 faiz azalması şəraitində mal, qoyun və keçi əti istehsalı 8,3 faiz artıb ki, bu da ölkədaxili tələbatın diri halda idxal edilən heyvanların kəsimi hesabına ödənilməsi səviyyəsinin nə qədər yüksək olduğunu göstərməklə xaricdən xəstəliklərin ölkəmizdə yayılma risklərinin artması, damazlıq heyvandarlıq sahəsində irəliləyişlərə nail olunmaması və idxaldan asılılığın azalmamasından xəbər verir: "Dövlət dəstəyi mexanizmini tənzimləyən mövcud hüquqi aktların şərtlərinə əsasən damazlıq heyvanın dəyərinin güzəşt məbləği alıcı qismində yalnız müvafiq tələblərə cavab verən damazlıq təsərrüfatları üzrə maliyyələşdirilməli olduğu nəzərə alınmaqla zəruri maddi-texniki bazaya və praktiki vərdişlərə malik olsalar belə minimum say normalarına cavab verə bilməyən mikro və kiçik fermer sahibkarların həmin dövlət dəstəyindən faydalanması imkanları tamamilə məhdudlaşdırılıb ki, bu da bir tərəfdən damazlıq heyvandarlığın regional inkişafında, digər tərəfdən regional məşğulluğun dayanıqlığının təmin edilməsində, eləcə də heyvandarlıq məhsulları üzrə özünütəminetmə səviyyəsinin və nəticə etibarı ilə satış qiymətlərinin tədricən optimallaşdırılmasında səmərəliliyin və nəticəliliyin yüksəldilməsini təşviq etməyib".

Palatanın araşdırmasına əlavə olaraq qeyd edək ki, quru sərhədlərin bağlı olması şəraitində xırda sahibkarların Gürcüstan və Rusiyadan mal-quzu idxalı tamamən dayanıb, bu proses də iri inhisarçıların əlində cəmləşib. Nəticədə diri heyvanların qiyməti də hemin inhisarçı qrupların maraqlarına uyğun müəyyənləşdirilir ki, bu da son satışa gedən ətin qiymətində özünü büruzə verir.



Müşahidələr göstərir ki, Azərbaycana diri heyvan idxalı azalanda əti idxalı artır, heyvan idxalı artanda isə azalır. Məsələn, Gömrük Komitəsinin məlumatına əsasən 2024-cü ildə Azərbaycana 129 milyon 556 min dollar dəyərində 58 689 ton ət idxal olunub. Ət idxalı dəyər ifadəsilə 49.4 faiz, miqdar ifadəsilə 41 faiz artıb. 2023-cü ildə Azərbaycana 86 milyon 739 min dollar dəyərində 41 708 ton ət idxal olunmuşdu. Bunun əksinə olaraq, diri heyvan idxalında ötən il ciddi azalma qeydə alınıb. Belə ki, 2024-cü ilin yanvar-noyabrında Azərbaycana ətlik iribuynuzlu heyvan idxalı 38 milyon 19,8 min dollar dəyərlə 42 902 baş, diri qoyun idxalı isə 16 milyon 594,59 min dollar dəyərlə 169 579 baş təşkil edib. 2023-cü ilin eyni dövründə idxal müvafiq olaraq 49 milyon 201,87 min dollar dəyərlə 77 655 baş və 24 milyon 387,89 min dollar dəyərlə 314 553 baş olmuşdu. Bu isə hər iki heyvan idxalında 1,8 dəfə azalma olması deməkdir.

2025-ci ilin yanvar-iyul aylarında Azərbaycana 55 milyon 116 min dollar dəyərində 25 min 180 ton ət idxal edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə həcm baxımından 18 faiz (5 min 542 ton), dəyər baxımından isə 19,5 faiz (13 milyon 427 min dollar) azalma deməkdir. Diri heyvan idxalı isə bu ilin ötən dövründə kəskin artıb. İlin ilk yarısında xaricdən 40 milyon 305,98 min dollar dəyərində 50 086 baş diri iribuynuzlu heyvan, 8 milyon 517,8 min dollar dəyərində 72 285 baş diri qoyun idxal edilib. Ötən ilin eyni dövründə diri iribuynuzlu heyvan idxalı 16 milyon 974,44 min dollar dəyərlə 21 360 baş, diri qoyun idxalı isə 2 milyon 959,19 min dollar dəyərlə 37 139 başa bərabər olub. Bu isə o deməkdir ki, diri iribuynuzlu heyvan idxalı 2,3 dəfə, diri qoyun idxalı isə 1,9 dəfə artıb.

Uzun illərdir Azərbaycanda kənd təsərrüfatı, o cümlədən heyvandarlıq dövlət tərəfindən subsidiyalaşdırılır. Hər il ümumilikdə ərzaq təhlükəsizliyinin təminatı məqsədilə dövlət büdcəsindən külli miqdarda vəsait ayrılır. Cari ildə dövlət büdcəsindən kənd təsərrüfatı sahəsi üçün 1 milyard 203 milyon 805 min 845 manat ayrılması nəzərdə tutulur. Bu vəsaitlərin mühüm bir hissəsi ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına yönəldilir. Belə ki, büdcə sənədinə əsasən 2025-ci ildə dövlət büdcəsindən Azərbaycanda ərzaq təhlükəsizliyi tədbirləri üçün 527.5 milyon manat vəsait proqnozlaşdırılıb ki, bu da 2024-cü illə müqayisədə 24,6 milyon manat və ya 4,9 faiz çoxdur.

Bu subsidiyadan əlavə, dövlət aqrar istehsalçılara sığorta mexanizmi ilə də dəstək verməyə çalışır. Aqrar Sığorta Fondunun hesabatlarından aydın olur ki, bitkiçilik sahəsində sığortalanma prosesi sürətlə artır. Heyvandarlıq sahəsi üçün bunu demək mümkün deyil. **Fondun rəhbəri Fuad Sadıqovun "Yeni Müsavat"a dediyinə görə, Azərbaycanda olan heyvan sayı milyonlarla, sıortalanan heyvan sayı isə on minlərlə ölçülür. Hazırda sığortalanan heyvan sayı ölkə üzrə heyvanların 1 faizinə belə çatmır. Fond rəhbəri bildirir ki, heyvandarlıqda sığortalanmanın ləng getməsinin səbəbi qeydiyyat prosesi ilə bağlıdır:** "Bildiyiniz kimi, bütün ölkə boyu heyvanların birkalanması - yəni qeydə alınaraq hər biri haqqında elektron informasiya sisteminə məlumat yerləşdirilməsi prosesi gedir. Biz yalnız rəsmi uçota alınmış heyvanları sığortalaya bilirik. Qeydiyyat prosesi başa çatana qədər biz daha çox hadisələrin sığortalanması üçün təkliflər hazırlayırıq ki, heyvandarlıqda da sığorta mexanizmindən bəhrələnənlərin sayı çoxalsın".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 153 (8763) 29 avqust 2025
Avqust

## Bunları bilirsinizmi?

* Yumurtanı qaynadarkən onun çatlamasını istəmirsinizsə, qaba yanmış kibrit qoyun.
*Tərə qarşı dezodorantları səhər yox, gecə vurun. Bu, daha uzun müddətə qoxunun qarşısını alacaq.
* Ütünün suyunun içinə bir az ətir vursanız, paltarlarınızdan gözəl qoxu gələcək.
* Külqabının pis iylənməməsi üçün onu su ilə yox, zeytun yağı ilə isladın.
* Pişiklərin divan və ya kreslonuza oturmasını istəmirsinizsə, həmin yerə naftalin qoyun. Pişiklər onu heç sevməzlər.
* Saçlarınızı boyadarkən üzünüzə dəyən boyanı südə batırılmış pambıqla silin.
* Yata bilmirisinizsə, albalı suyu için.
* Zibil qutunuzun içinə soda və ya qabartma tozu töksəniz pis qoxunun qarşısını ala biləcəksiniz.
* Yumurtanı qaynatdıqdan sonra qalan suyu dibçəyə tökün. Bitkilərə çox xeyirlidir.
* Dırnaq boyasından qalan sarılığı götürmək üçün dırnağa sirkə sürtün. Rəngini açacaq.
* Mədəniz bulanırsa bir stəkan qəhvə için.

# Müasir oyuncaqlar uşaqlarda qumar vərdişi yarada bilər



**Mütəxəssislər həyəcan təbili çalırlar: uşaqlar arasında sürətlə yayılan sürpriz oyuncaqlar qumar aludəçiliyinə yol aça bilər. Ekspertlərin fikrincə, ənənəvi gəlinciklər uşaqlar üçün daha sağlam hesab olunur. Türkiyəli psixoloq Ahmet Erdem xəbərdarlıq edir ki, uşaqlar sürpriz içlikli oyuncaqlardan hər birinin içində nə olacağını bilmirlər. Bu, azyaşlıları istədikləri sürprizi tapana qədər davamlı olaraq yeni oyuncaq almağa təşviq edir. Belə olduqda uşaqlar oyuncağın özündən çox, satınalma anındakı həyəcandan asılı hala gəlir və həmin həyəcanı təkrar-təkrar yaşamaq istəyirlər.**

"Uşaqlar artıq oyuncağın özü ilə deyil, onu alarkən hiss etdikləri emosiya ilə maraqlanırlar. Bu, zehnində qumara bənzər bir mexanizm yaradır", - psixoloq bildirib. O, valideynləri uşaqlar üçün oyuncaq seçimində daha diqqətli olmağa çağırıb.

## Duzlu yeməklər beyinə ciddi zərər vurur



**Terapevt və dietoloq Elvira Fasenko gündəlik duzun həddindən artıq qəbulunun beyin sağlamlığı üçün təhlükəli olduğunu bildirib. Onun sözlərinə görə, artıq duz beyində qan dövranını pozur, arterial təzyiqi yüksəldir və damar mənşəli demensiya riskini artırır.**

Mütəxəssis qeyd edib ki, beyin yüksək enerji tələb edən orqan olduğu üçün neyronların fasiləsiz qan və oksigenlə təminatı vacibdir. Lakin çox duz damarların daralmasına səbəb olaraq bu prosesi çətinləşdirir. Yaş artdıqca risklərin daha da yüksəldiyini vurğulayan Fasenko bildirib ki, duzlu qidalanma yalnız ürəyə deyil, eyni zamanda beyin funksiyalarına da mənfi təsir göstərir. Ümumdünya Səhiyyə Təşkilatı gündə maksimum 5 qram duz qəbulunu tövsiyə edir, lakin insanlar orta hesabla 9-15 qram duz istehlak edir. Əksər duz isə hazır məhsullardan - çörək, pendir, souslar, kolbasa və yarımfabrikatlardan qaynaqlanır.

Fasenko əlavə edib ki, yüksək duza öyrəşən orqanizmdə dad reseptorları zəifləyir və insanlar getdikcə daha çox duz əlavə etməyə meylli olurlar. Bu isə iltihabi prosesləri gücləndirir, oynaqlara, mədəyə və böyrəklərə ziyan vurur. Onun sözlərinə görə, duzun beyinə təsiri isə daha sürətli hiss olunur. Həkim məsləhət görüb ki, duz qəbulunu məhdudlaşdırmaq beyin funksiyalarının uzun müddət sağlam qalmasına kömək edəcək.

# İspaniyada "pomidor döyüşləri"



**İspaniyanın kiçik Bunyol şəhərində məşhur "Tomatina" festivalı baş tutub. Bu barədə "El Pais" məlumat yayıb. Minlərlə festival iştirakçısı bir-birinə 120 ton pomidor atıb. Günortaya yaxın bir neçə yük maşını mərkəzi şəhər meydanına pomidor gətirib. Bundan sonra şəhərdə xaos başlayıb. Qeyd edək ki, festivalda 2013-cü ildən etibarən iştirakçıların sayını 20 000 nəfərlə məhdudlaşdıran rəsmi bilet satışı sistemi fəaliyyət göstərir. Bütün dünyada məşhurlaşan tərəvəz döyüşü hər il avqustun axır çərşənbəsində keçirilir.**

Kiçik İspan şəhərciyinə dünyanın hər yerindən turistlər gəlirlər. Ənənəvi olaraq döyüş təxminən bir saat davam edir. "Tomatina" İspaniya televiziyasında yayımlanır. Festivalın rəngarəngliyini vurğulamaq üçün bir çox iştirakçı ağ köynək geyinir.

Döyüşlər başa çatdıqdan sonra su şlanqları və yanğınsöndürən maşınların köməyi ilə küçələr və evlər pomidor qalıqlarından təmizlənir.

## Batmanda yeniyetmə zibillikdən külli miqdarda qızıl tapdı

**Türkiyənin Batman şəhərində yaşayan 15 yaşlı Ömər Çoban nümunəvi davranışı ilə gündəmə gəlib. Bu barədə "TRT Haber" məlumat yayıb. Bildirilir ki, yeniyetmə zibil qutusunun yanında tapdığı, dəyəri təxminən 1,6 milyon lirə (təxminən 66 min manat) olan qızıl zinət əşyalarını polisə təhvil verib. Onun bu addımı nümunəvi davranış kimi dəyərləndirilib.**

## Yeni növ dinozavrın qalıqları aşkar edilib

**Beynəlxalq paleontoloqlar qrupu Mərakeşin şimalında bədəni çoxlu iti tikanlarla örtülmüş nəhəng zirehli kərtənkələ aşkar ediblər. Bu barədə Britaniya Birmingem Universitetinin Mətbuat Xidməti məlumat yayıb. Məlumata görə, heyvanın üzərindəki tikanların bəzilərinin uzunluğu bir metrdən çox olub. Bu kərtənkələnin quyruğunun tədqiqi elm adamlarının ankilozavrlara dair fikirlərini kökündən dəyişib. "Biz bu dinozavrın qalıqlarını öyrənməyə başlayanda onun xarici görünüşünün nə qədər qəribə olduğuna inana bilmədik. O, heç bir digər dinozavr və ya müasir canlı məxluqa bənzəmir. Onun tədqiqi ankilozavrların necə təkamül etdikləri barədə fikirlərimizi tamamilə dəyişdirdi və bu tapıntı həm də göstərir ki, bu heyrətamiz heyvanlar haqqında hələ çox öyrənməliyik", - deyə məlumatda bildirilib.**

## Ağcaqanad dişləmələri ölüm riski daşıyırmış...



**Ağcaqanad dişləmələri təkcə qaşınma yaratmır, müxtəlif xəstəliklər də daşıyırlar. Bu infeksiyalar yüksək hərarət, əzələ ağrıları, səpgilər, nevroloji ağırlaşmalar və hətta ölümlə nəticələnə bilər.**

Milli.Az xəbər verir ki, ağcaqanadlar təkcə yay aylarında diskomfort yaradan qaşınma dişləmələri ilə deyil, həm də sağlamlığa ciddi təhlükə yaradan xəstəliklərin daşıyıcısı kimi diqqət çəkirlər.

Hər il milyonlarla insan ağcaqanadlar vasitəsilə yoluxucu infeksiyalara yoluxur. Bu, ictimai sağlamlıq üçün ciddi təhlükə yaradır. Ağcaqanadlar vasitəsilə ötürülən xəstəliklər virus və parazitləri ötürür, ciddi simptomlara və bəzi hallarda hətta ölümə səbəb olur.

**1. Malyariya:**
Anopheles ağcaqanadlarının daşıdığı Plasmodium parazitləri tərəfindən ötürülür. Malyariya yüksək hərarət, titrəmə, tərləmə və halsızlıq kimi simptomlarla özünü göstərir və xüsusilə tropik bölgələrdə yaygındır.

**2. Dang qızdırması:**
Aedes ağcaqanadlarının daşıdığı bu virus yüksək hərarət, baş ağrısı, əzələ və oynaq ağrıları və səpgilərə səbəb olur. Ağır hallarda qanaxma da ola bilər.

**3. Zika virusu:**
Aedes ağcaqanadları tərəfindən ötürülən zika adətən yüngül simptomlarla özünü göstərir. Qızdırma, səpgi və oynaq ağrısı da baş verə bilər. Hamilə qadınlarda körpələrində beyin inkişafı pozğunluqları inkişafı riski yüksəkdir.

**4. Qərbi nil virusu:**
Culex ağcaqanadlarının daşıdığı Qərbi Nil virusu əksər insanlarda asemptomatik olsa da, bəzi hallarda ciddi və ölümcül ola bilən beyin iltihabına və meningitə səbəb olur.

**5. Sarı qızdırma:**
Aedes ağcaqanadları tərəfindən ötürülən sarı qızdırma yüksək hərarət, sarılıq, qanaxma və orqan çatışmazlığı kimi ciddi simptomlara səbəb olur. Peyvənd etmək mümkündür.

**6. Çikungunya virusu:**
Aedes ağcaqanadlarının daşıdığı Çikungunya yüksək hərarət və şiddətli oynaq ağrılarına səbəb olur. Ağrı həftələrlə davam edə bilər.

**8. Fil xəstəliyi:**
Culex ağcaqanadlarının daşıdığı parazitlər limfa sisteminə təsir edərək, şişlik və qalıcı zədələnməyə səbəb ola bilər.

## Danimarka sahillərində qədim sualtı yaşayış məskəni

**Arxeoloqlar Danimarkanın Orxus körfəzində qədim sualtı yaşayış məskəni aşkarlayıblar. Tapıntının yaşı təxminən 8 500 ilə bərabərdir. Alimlər bu yaşayış məntəqəsini "daş dövrünün Atlantidası" adlandırırlar. Piter Mo Astrupun rəhbərlik etdiyi arxeoloqlar qrupu təxminən 430 kvadrat fut ərazidə qazıntılar aparıb. Mütəxəssislərin fikrincə, son buz dövrü başa çatdıqdan sonra dəniz səviyyəsinin qalxması nəticəsində yaşayış məntəqəsi su altında qalıb.**

Astrup bildirib ki, buz təbəqələrinin əriməsi dəniz səviyyəsinin sürətlə yüksəlməsinə səbəb olub. Bəzən suyun səviyyəsi əsr ərzində bir neçə metr artıb. Bu isə daş dövründə sahilboyu yaşayış məntəqələrinin su altında qalmasına və ovçu-yığıcı icmaların daxili ərazilərə köçməsinə gətirib çıxarıb. Qazıntılar zamanı çoxlu sayda artefakt tapılıb. Tapıntılar arasında heyvan sümükləri, daş alətlər, ox ucları, suiti dişi və emal edilmiş taxta əşyalar aşkarlanıb.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor:
Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri,
R.Rüstəmov küçəsi
2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib,
"Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.